YAP: kreativlik, modern idarəçilik və uğur faktoru 6

# Səs

№ 194 (6394) 23 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik



2

# Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı olub

## Hikmət Hacıyev: "Bizim məqsədimiz qisas deyil, gələcək sülhə çağırışdır"

5



2020-ci il Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edən bir dövr oldu. Nəhayət ki, 30 ildən sonra Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyuldu və xalqımız öz liderinin ətrafında sıx birləşərək Vətən müharibəsinə qalxdı.

## Ərdoğandan Türk dünyasına çağırış: "Güclərimizi birləşdirməliyik!"



5

## "Səs" Media Qrupunun əməkdaşları ŞUŞADA!




7

## İndiyədək 18 min hektardan çox ərazi təmizlənib



2020-ci il 10 noyabr üçtərəfli bəyanatından indiyədək 18 min hektardan çox ərazi təmizlənib. SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Anadolu Agentliyinə müsahibəsində deyib. 14

## Qubadlının işğaldan azad olunmasından bir il ötür




12

*Ötən il 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı..*

## "Barselona" Mbappeni almağa ümidlidir



16

## 6 Həkim-infeksionist: 3-cü doza vaksinasiya sürətləndirilməlidir - ƏKS TƏQDİRDƏ...



## Dövlət müstəqilliyimizin bərpasının ildönümü beynəlxalq elmi müzakirələrdə

10







## B12 vitamini əsəb sisteminin dərmanıdır...

16

## İrəvanın Bakıya qarşı revanşçı hissləri sönməyib

Bakının, eləcə də bir sıra siyasi mərkəzlərin çoxsaylı siqnallarına rəğmən İrəvanın sülh müqaviləsini imzalamaqdan ciddi-cəhdlə yayınması, həmçinin Ermənistanın müxtəlif siyasi dairələrinin əksinə - revanş xarakterli fikirlər... 10



## "Azərbaycanın qazandığı şanlı qələbədən şərəf və məmnunluq duyuruq"

6

# Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı olub

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva açılışda iştirak ediblər*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva oktyabrın 22-də Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak ediblər.***




AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslərin, o cümlədən, müharibə əlillərinin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir. Mərkəzin tikintisi "PAŞA Holding" tərəfindən maliyyələşdirilib, arxitektura, layihələndirmə və təşkilati dəstək isə "Cobalt Architecture and Design" şirkəti tərəfindən təmin edilib. Mərkəz sosial tərəfdaşlıq prinsipinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilib.








Burada əlilliyi olan şəxslərə milli və Avropa kulinariyası üzrə 15 yaşdan yuxarı 5 nəfərlik qrup üçün təlim, həmçinin kulinariya yarmarkalarının keçirilməsi, kulinariya verilişlərinin çəkilməsi nəzərdə tutulur.

Mərkəzdəki audio-səsyazma studiyasında vokal bacarıqların inkişaf etdirilməsi, audiodisklərin və solo albomların yazılması, videoçarxların, sənədli və bədii filmlərin, teletamaşaların dublyaj edilməsi nəzərdə tutulur. Studiyada yaş məhdudiyyəti yoxdur.

Floristika və landşaft dizaynı studiyasında isə dekorativ-tətbiqi sənət və dizayn növü olan floristika və landşaft dizaynının təlimi, süni, qurudulmuş və canlı güllərdən ibarət natürmortların hazırlanması, gül kompozisiyalarının yığılması, terrarium və bitki rezervuarlarının dizaynı və quraşdırılması nəzərdə tutulur. Studiyada eyni vaxtda 8 nəfərə, gün ərzində 2 qrupa təlimlərin keçirilməsi mümkündür. Təlimlərdə yaşı 10-15-dən yuxarı olan şəxslər iştirak edə bilərlər.

Metal və ağac oyma studiyasında dekorativ-tətbiqi sənətin növü olan ağac, metal, daş üzərində bədii oyma sənəti tədris ediləcək. Studiyada artıq ağac üzərində oyma üsulu ilə hazırlanmış musiqi alətləri, milli mədəniyyət abidələri, heykəl və fiqurlu kompozisiyalar təqdim olunur.

Ardı Səh. 3





# Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı olub

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva açılışda iştirak ediblər*



*"Ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir"*

Əvvəli-Səh-2

Bu studiyada eyni vaxtda 8-10 yaşdan yuxarı 6 nəfərə, gün ərzində 2 qrupa təlimin keçirilməsi mümkündür.

Xalçaçılıq, tikiş, toxuma və tikmə studiyasında dekorativ-tətbiqi sənətin əsas növü olan Azərbaycan xalçaçılıq sənəti və onun mühüm 7 xalçaçılıq məktəbinin əsasları tədris ediləcək. Burada ilmə-naxış texnikası, rəng ahənginin seçilməsi, yun iplərin boyanması, bədii tikmə növünün ən qədim və geniş yayılmış pilətikmə forması, qızılı saplarla, muncuqla milli və müasir geyimlərin işlənməsi, dizaynı öyrədiləcək. Studiyada eyni vaxtda 6-8 yaşdan yuxarı 7 nəfərə təlimin keçirilməsi mümkündür. Gün ərzində hər sahə üzrə bir qrup tədris prosesində iştirak edəcək.

Musiqi studiyasında Azərbaycan milli musiqi sənətinin, çalğı, vokal dərslərinin tədrisi nəzərdə tutulur. Studiyada çalğı, vokal qabiliyyəti, musiqi biliyi olan 4 yaşdan yuxarı 20-25 nəfər eyni vaxtda təlimlərə qatılacaq. Gələcəkdə əlilliyi olan musiqiçilərdən ibarət instrumental və vokal ansamblın yaradılması nəzərdə tutulur.

Mərkəzin açıq havada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş həyətyanı sahəsi də var. Burada reabilitasiya məqsədi ilə meditasiya, yoqa və digər fiziki təlimlərin, müxtəlif sərgilərin, satış-sərgi yarmarkalarının təşkili, floristika və landşaft dizaynı üzrə təlimlərin keçirilməsi, həmçinin pavilyon kimi istifadə edilərək inklüziv televiziya verilişlərinin çəkilməsi üçün şərait var.

Mərkəzin keramika studiyasında dulusçuluq sənət növü üzrə bacarıqlar, o cümlədən keramik əşya, dekorativ məmulatların hazırlanması və rənglənməsi, farfor qablar və dekorativ məmulatların milli naxışlarla bəzədilməsi, dekorativ heykəltəraşlıq öyrədiləcək. Studiyada eyni vaxtda 8 yaşdan yuxarı 9 nəfərə təlim keçirilməsi mümkündür.

Təsviri sənət studiyasında kətan üzərində yağlı boya, akvarellə, kağız üzərində qrafiti və tuş, vitraj boya vasitəsilə şüşə üzərində, sulu boya ilə ipək üzərində rəsm sənətinin öyrədilməsi nəzərdə tutulur. Studiyada 5 yaşdan yuxarı eyni vaxtda 10 nəfərə, gün ərzində 2 qrupa təlim keçiriləcək.

Rəqs zalında fiziki məhdudiyyətli və peşəkar insanların birgə rəqs təliminin keçirilməsi və gələcəkdə peşəkar inklüziv rəqs kollektivinin yaradılması nəzərdə tutulur. Həmçinin burada yerli və xarici xoreoqraflarla təlimlər və ustad dərsləri də planlaşdırılır. Zalda eyni vaxtda 30 nəfərə rəqs dərslərinin keçirilməsi mümkündür. Peşəkar rəqs təlimində iştirak edən əlilliyi olan şəxslər 10-34, inkişaf rəqqasları isə 15-34 yaş arasında olacaqlar. Digər fizioloji reabilitasiya təlimində isə 5 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər.

Mərkəzin 121 nəfərlik auditoriyasında kinoteatr və teletamaşaların təqdimatı mümkündür. Səhnədə müasir plastika, musiqili janr üslublu və emosional teatr quruluşlarının, müxtəlif musiqili konsert proqramlarının, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsi üçün şərait yaradılıb.

Burada sosial müəssisə sakinləri üçün ödənişsiz film nümayişləri planlaşdırılır. Səhnədə eyni vaxtda 25-30 nəfər tərkibdə teatr tamaşalarının və konsertlərin keçirilməsi mümkündür.

Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reallaşdırdığı "Bərabərik" televiziya layihəsi və inklüziv teatrlarla bağlı məlumat verildi.

Mərkəzdə kitabxana da yaradılıb. Burada Azərbaycan milli ədəbiyyatına, həmçinin xarici dillərdə müxtəlif peşə və sənət tədrisinə dair kitablar var. Kitabxanada görmə məhdudiyyətli şəxslərin bədii yaradıcılığının inkişafı üçün brayl əlifbası ilə kitablardan ibarət guşələrin yaradılması, əlilliyi olan şəxslərin kitablarının təqdimatının, məşhur yazıçıların iştirakı ilə qiraət günlərinin, yerli və xarici yazarların imza günlərinin keçirilməsi nəzərdə tutulur.

İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində 60 nəfər işçi heyət və "Könüllü DOST" üzrə 20 nəfər könüllü fəaliyyət göstərəcək.

X X X

Mərkəzin yaxınlığındakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından Prezident İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı və qızları Leyla Əliyevanı salamladılar.



***Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanış olublar.***

# Azərbaycan dünyanın nüfuzlu idman ölkəsinə çevrilib




*Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanışlıq*



AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya Milli Gimnastika Arenasının ərazisində yerləşən yeni məşq binasında yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Milli Gimnastika Arenasının yeni məşq binasının tikintisi ötən ilin sentyabrında başa çatdırılıb. Burada kişi və qadın idman gimnastikası, bədii gimnastika, batut gimnastikası, ümumilikdə gimnastikanın 7 növü üzrə məşqlər keçirilir. Binada məşqçi və həkim otaqları, həmçinin gimnastlar üçün istirahət otaqları, fitnes və xoreoqrafiya zalları fəaliyyət göstərir. Burada hovuz da yaradılıb. Yeni binada eyni vaxtda 100 nəfər məşq edə bilər. Binanın ikinci mərtəbəsində idmançıların yaşayışı üçün 60 çarpayılıq 19 otaq vardır. Bir sözlə, Milli Gimnastika Arenasının yeni məşq binasında təlim-məşq toplantıları təşkil etmək, gimnastikanın müxtəlif növləri üzrə təlim keçmək və beynəlxalq yarışların yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. Yeri gəlmişkən, gələn ay burada batut gimnastikası üzrə Dünya Çempionatının keçirilməsi nəzərdə tutulur. Ümumilikdə isə gələn il Milli Gimnastika Arenasında bir sıra mötəbər beynəlxalq yarışların təşkili planlaşdırılır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva gimnastların məşqlərinə baxdılar və xatirə şəkli çəkdirdilər.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycanın dünyanın nüfuzlu idman ölkəsinə çevrilməsinə, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılmasına, yeni-yeni idman obyektlərinin tikilib istifadəyə verilməsinə, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə, idmanın bütün növlərinin inkişaf etdirilməsinə həmişə xüsusi diqqət yetirib. Dövlətimizin başçısının və birinci xanımın iştirakı ilə 2014-cü ildə Bakıda istifadəyə verilən Milli Gimnastika Arenası idmanın bu növünün inkişafına geniş imkanlar açıb, gənc nəslin gimnastikaya olan həvəsinin artırılması işində mühüm rol oynayıb.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan Gimnastika Federasiyasının əldə etdiyi böyük uğurlar Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi sayəsində mümkün olub. Belə ki, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün inkişaf mərhələsi başlayıb, gimnastika ilə məşğul olan idmançıların beynəlxalq yarışlarda qazandığı uğurlarının sayı artıb.

















# Ərdoğandan Türk dünyasına çağırış: "Güclərimizi birləşdirməliyik!"



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "Köklü keçmiş, güclü gələcək" adlı Türk Şurası Media Forumunun iştirakçılarına video müraciət göndərib. SİA Türk mətbuatına istinadən xəbər verir ki, Prezident Ərdoğan Türk dünyası olaraq birlik mövzusunda təşəbbüs göstərməli olduğumuzu vurğulayıb.***

Prezident qeyd edib ki, təcrübələrimizi paylaşmalı, güclərimizi birləşdirməli və əlimizdəki imkanlardan ən səmərəli şəkildə istifadə etməyin yollarını axtarmalıyıq: "Köklü keçmiş, güclü gələcək" mövzusunda təşkil etdiyimiz forumun bu nöqtədə bizə güclü bir platforma verəcəyinə inanırıq".

Prezident Ərdoğan bu müraciətin Türk dünyasına bir çağırış olduğunu qeyd edib: "Türk Şurası Media Forumunun uğurlu olmasını diləyirəm. Tarixin, mədəniyyətin və mədəniyyətlərin şəhəri olan gözəl İstanbulumuza təşrif buyuran forumun hörmətli iştirakçılarını salamlamaq istərdim.

Bildiyiniz kimi, 2019-cu ildə Türk Şurası Liderləri Zirvəsində Beynəlxalq Media Forumunun təşkili ilə bağlı bir təşəbbüs etdik. Daha sonra ölkəmizin ev sahibliyi etdiyi bir media forumunun təşkilinə qərar verildi. Ortaq iradəmiz və səylərimiz nəticəsində media forumunun bu gün həyata keçirildiyinə görə çox xoşbəxtik. Ümid edirəm ki, üç gün davam edəcək görüşlər, ən çox sui-istifadə edilən və baxımsız sahələrdən biri olan media ilə bağlı ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsində vasitəçi olacaq.

Bu gün, sosial medianın yayılması ilə, biz də bütün bəşəriyyətlə birlikdə tez-tez dezinformasiya kampaniyalarına məruz qalırıq. Yalan və təhrif edilmiş xəbərlər səbəbindən milyonlarla həssas insanların həyatı qaralır və dünyada ciddi travmalar və dramlar yaşanır. Nəzarət və ya özünü idarə etmənin olmadığı sosial media kanalları, bu gün həm demokratiyanı, həm sosial sülhü, həm də dövlətlərin milli təhlükəsizliyini təhdid etmək həddinə çatıb.

Nə qədər inkişaf etsə də, rəqəmsal faşizmin dağıdıcı təsirindən heç bir ölkə və ya cəmiyyət azad deyil. Türk dünyası rəqəmsal faşizmdən başqa beynəlxalq medianın ikili standartından da əziyyət çəkir. Xüsusilə 44 gün davam edən Dağlıq Qarabağ müharibəsi zamanı şahidi olduğumuz riyakar münasibət ölkələrimiz üçün məsələnin əhəmiyyətini ortaya qoydu. Ermənistan ordusunun dinc əhalini hədəf alan qırğın və ballistik raket hücumları heç vaxt gündəmə gətirilməyib. Medianın müstəqilliyindən və obyektivliyindən bəhs edən beynəlxalq media orqanları Ermənistanın rəsmi xəbər agentliyi kimi çıxış etdilər.

Qarabağ savaşı ölkələrimiz və türk dünyası ilə bağlı faktlara qarşı tətbiq olunan mətbuat embarqosunun nə birinci, nə də son nümunəsidir. Tariximizi, milli təhlükəsizliyimizi və millətimizin dəyərlərini hədəf alan bir çox məsələlərdə, xüsusən də qondarma "soyqırımı" iddialarında oxşar münasibətlərlə qarşılaşırıq. Acı təcrübələrimizin işığında, hamımız bu həqiqəti aydın və aydın görə bilərik. Müdafiə sənayesi və hərbi məsələlərdə tamamilə xaricilərə güvənmədiyimiz kimi, ünsiyyət məsələsini də başqalarına həvalə edə bilmərik. Bizə insan haqları, demokratiya və azadlıq dərslərini şərqşünaslıq baxımından daim öyrədənlərin vicdanına və peşə etikasına etibar edə bilmərik. Digər strateji məsələlərdə olduğu kimi, media və təbliğatda da "öz göbəyimizi özümüz kəsməliyik".

Türk dünyası olaraq bu mövzuda təşəbbüs göstərməliyik, təcrübə paylaşmalıyıq, qüvvələrimizi birləşdirməliyik və əlimizdəki imkanlardan ən səmərəli şəkildə istifadə etməyin yollarını axtarmalıyıq. "Köklü keçmiş, güclü gələcək" mövzusunda təşkil etdiyimiz forumun bu nöqtədə bizə güclü bir platforma verəcəyinə inanırıq. Forum münasibətilə, Türk dünyasında həmrəyliyi inkişaf etdirmək, qarşılıqlı güvəni gücləndirmək və dezinformasiyaya qarşı mübarizə, informasiya təhlükəsizliyi, milli informasiya texnologiyaları hərəkatı, film və serial kimi mövzularda əməkdaşlığımızı daha da inkişaf etdirmək arzusundayıq. ortaq mədəniyyətə üstünlük verin. Ümid edirəm ki, kritik bir zamanda və səlahiyyətli insanların iştirakı ilə təşkil edilən forum bizi bu hədəflərə bir addım daha yaxınlaşdıracaq. Türk Şurası Media Forumunun səmərəli olmasını və əməyi keçənləri təbrik etməsini arzulayıram. Sizin simanızda Türk dünyasındakı bütün qardaşlarımıza və dostlarımıza ən səmimi salamlarımı çatdırıram".

# Hikmət Hacıyev: "Bizim məqsədimiz qisas deyil, gələcək sülhə çağırışdır"

***2020-ci il Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edən bir dövr oldu. Nəhayət ki, 30 ildən sonra Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyuldu və xalqımız öz liderinin ətrafında sıx birləşərək Vətən müharibəsinə qalxdı. Bunun nəticəsində "Qarabağ Azərbaycandır!" şüarı ilə torpaqlarımızı işğaldan azad etdik.***




AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Şurasının mediaforumunda çıxış edərkən bildirib.

"İlk növbədə, başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla qardaş Türkiyənin Azərbaycanın yanında olmasını, mənəvi, siyasi, diplomatik dəstək verməsini qeyd etmək istərdim. Həmin dövrdə Türkiyənin nəbzi, ürəyi Azərbaycanla döyünürdü və nəhayət, Azərbaycan xalqının bu həsrətinə son qoyuldu. Eyni zamanda, Türk Şurasına üzv ölkələr və başda Şuranın baş katibi olmaqla 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqına öz dəstəklərini əsirgəmədilər. Vətən müharibəsi dövründə iki qardaş ölkənin KİV-ləri də çiyin-çiyinə mübarizə apardılar", - deyə Hikmət Hacıyev qeyd edib.

Belə bir mediaforumun təşkilinin uzun illərdir gözlənildiyini vurğulayan Prezidentin köməkçisi deyib: "Bizim media nümayəndələrini belə bir formatda görməkdən xüsusi sevinc və qürur hissi duyuruq. Çünki sizlər arasında olan münasibətlər media sahəsindəki gücümüzü artırır. Bu, eyni zamanda, liderlərimiz tərəfindən qarşımıza qoyulan tapşırıqdır. Ortaq kökümüzün, mədəniyyətlərimizin insanlara, xüsusən də gənclərimizə daha yaxından tanıdılması, eyni zamanda, zəngin türk mədəniyyətinin dünyaya tanıdılması istiqamətində işlərin aparılması mühüm əhəmiyyət daşıyır".

Azərbaycanın qarşısında duran yeni vəzifələrdən birinin Qarabağın yenidən qurulması olduğunu söyləyən Hikmət Hacıyev bildirib ki, işğaldan azad olunmuş torpaqlarımız tamamilə dağıdılıb. XXI əsrdə bir torpağın, bir şəhərin bu şəkildə dağıdılması insanın ağlına gələcək bir mənzərə deyil. Qardaş türk ölkələrinin media mənsublarına təşəkkür edirəm ki, onlar bu vandalizmi dünya ictimaiyyətinin diqqətinə çatdırırlar.

"Bizim məqsədimiz qisas deyil, gələcək sülhə çağırışdır. Bizim məqsədimiz gələcəkdə dünyada baş verə biləcək bu kimi əməllərin qarşısını almaqdır. Qarabağda Azərbaycan və türk xalqına məxsus zəngin mədəniyyət irsi var. Təəssüf ki, bu mədəni irsimiz də illər uzunu məhv edilib. İşğal altındakı torpaqlarda olan 67 məscid dağıdılıb, bütün müsəlmanlar təhqir edilərək bu məscidlərdə ermənilər tərəfindən donuz saxlanılıb.

Bu gün Azərbaycan Qarabağı yenidən qurmaq və türk-İslam sivilizasiyasının mərkəzi bölgəsi kimi Qarabağın tarixi nüfuzunu özünə qaytarmaq əzmindədir. Əminik ki, qardaş türk ölkələri də bu prosesdə Azərbaycanın yanında olacaqlar və biz bu məsələdə də birgə fəaliyyət göstərəcəyik".

Hikmət Hacıyev bildirib ki, Biz Türk Şurası olaraq 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi ilə böyük bir yola çıxdıq. Dünyada beynəlxalq təşkilatlar çoxdur, amma xüsusilə qeyd etməliyik ki, Türk Şurası digər beynəlxalq qurumlardan çox fərqlədir: "Beynəlxalq təşkilatlar bəzən siyasi, iqtisadi və digər maraqlar əsasında formalaşır. Təbii ki, bizim təşkilatın da bu kimi maraqları var. Lakin bundan əlavə Türk Şurasının təməlində, ana fəlsəfəsində məhz bizim qardaşlığımız, ortaq dəyərlərimiz, keçmişimiz və tariximiz dayanır. Türk Şurasının gücü və qüdrəti bundan qaynaqlanır. Türk Şurası dostluğumuzu bir araya gətirərək bizi irəliyə aparan təşkilatdır", - deyə Hikmət Hacıyev vurğulayıb.

Bir neçə həftədən sonra dövlət başçılarının iştirakı ilə Türk Şurasının Zirvə görüşünün keçiriləcəyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: "Bu Sammitdə vacib qərarların qəbul olunması gözlənilir. Bu qərarlar Türk Şurasının beynəlxalq münasibətlərdə daha da güclü mövqeyə malik olmasına imkan yaradacaq. Türk Şurası dedikdə qardaş ölkələrimiz arasında bütün sahələri əhatə edən əməkdaşlıq nəzərdə tutulur. Bu, ilk növbədə, siyasi əməkdaşlığımızdır. Dövlətlərimiz bütün beynəlxalq arenalarda bir-birini qətiyyətlə dəstəkləyir. 2019-cu ildə Bakıda keçirilən Zirvə görüşündə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz sədrliyi dövründə əməkdaşlığımızın inkişafına hər sahə üzrə töhfə verməyə davam edəcək. Məmnunluq hissi ilə demək istərdim ki, Azərbaycanın sədrliyi dövründə əməkdaşlığımız daha da genişləndi, qardaş Özbəkistan Türk Şurasının tam hüquqlu üzvü oldu, qardaş Türkmənistan da müşahidəçi statusunda Türk Şurasına qoşuldu. Bu, bizim sıralarımızı daha da genişləndirdi. Eyni zamanda, dünya miqyasında Türk Şurası ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqdadır".

# YAP: kreativlik, modern idarəçilik və uğur faktoru

*"YAP-ı digər partiyalardan fərqləndirən başqa bir mühüm cəhət, siyasi təşkilatda cəmiyyətin bütün təbəqələrindən olan insanların fəal təmsilçiliyinə şərait yaradılmasıdır"*

ANALİTİK

### Partiyanın idarəçilik mexanizmindəki müasirlik yüksək tərəqqi meyarlarının məntiqi nəticəsidir

Yeni Azərbaycan Partiyası yarandığı dövrdən hazırkı zamanımıza qədər öz dinamik siyasi fəaliyyəti ilə yanaşı, həm də Azərbaycan cəmiyyətinə siyasi əxlaq, siyasi mədəniyyət nümunəsi gətirib. Eyni zamanda, partiyanın əsas fəaliyyət mexanizmi novatorluq üzərində qurulub. Daha dəqiq desək, hakim partiyanın idarəçilik mexanizmi son zamanlarda öz çoxsaylı kreativliyi, ideyaları ilə seçilməkdədir. Müasir zamanımızda bu kimi xüsusiyyətlər isə həm də bir çağırışdır. Ölkənin ictimai-siyasi proseslərində, dövlətçilik maraqlarının qorunmasında və təbliğində aparıcı, mühüm rol oynayan Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi palitrasının lokomotivi, xalqın maraqlarını qoruyan siyasi qüvvə olaraq həm də xalqın partiyası kimi tərənnüm edilməkdədir.

### Potensial gənclərin Yeni Azərbaycan Partiyasında təmsil olunmaları hakim siyasi təşkilatın fəaliyyətini şaxələndirir

Bu məqamda biz 44 günlük Vətən müharibəsi zamanı partiyada fəaliyyət göstərən gənclərin istər torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qatılmalarını, qəhrəmanlıq səlnamələri yazmalarını, istərsə də arxa cəbhədəki yorulmaz fəaliyyətlərini, həmçinin Şanlı Zəferimizdən sonrakı örnək fəaliyyətlərini vurğulaya bilərik.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Müzəffər Sərkərdə İlham Əliyevin rəhbərliyi altında vətənsevər gənclərimiz dövlətə, xalqa, Vətənə nə qədər bağlı olduqlarını əməli şəkildə isbatladılar, bu gün də isbatlamağa davam edirlər. Bu baxımdan, onu da qeyd edə bilərik ki, belə bir potensial gənclərin Yeni Azərbaycan Partiyasında təmsil olunmaları hakim siyasi təşkilatın fəaliyyətini şaxələndirir

### YAP cəmiyyətimizin bütün fəal təbəqələri üçün geniş imkanlar təqdim edir

Lakin YAP-ı digər partiyalardan fərqləndirən digər bir mühüm cəhət isə siyasi təşkilatda cəmiyyətin bütün təbəqələrindən olan insanların fəal təmsilçiliyinə şərait yaradılmasıdır. O cümlədən, partiyada gəncləşdirmə siyasətinin uğurla davam etdirilməsi, struktur və idarəçiliyində modern üsulların tətbiqi, həmçinin qadınlara verilən üstünlüklər də belə qənaətə gəlməyə zəmin yaradır ki, YAP cəmiyyətimizin bütün fəal təbəqələri üçün geniş imkanlar təqdim edir. Misal üçün, işgörmə potensialı, siyasi bilgisi, yetkinliyi olan gənclər irəli çəkilir, onlara müxtəlif istiqamətlərdə mühüm vəzifələr həvalə olunur.

Digər tərəfdən, bu gün partiyanın sosial şəbəkələrdə qurduğu fəaliyyəti ilə yanaşı, onun media-informasiya bazasının da mövcudluğu özündə bir sıra məqamları ehtiva etməkdədir. Əsasən, Prezident İlham Əliyevin fəaliyyəti, işğaldan azad edilmiş torpaqlarımızda aparılan tikinti-quruculuq işləri, Silahlı Qüvvələrimizin uğurları, gündəmdə olan mühüm hadisələri, ümumiyyətlə, Azərbaycanın uğur gerçəklikləri və regional gücdən beynəlxalq gücə çevrilməsi reallığının təbliğində mühüm rol alan partiyanın ”Yeni TV” adlı media vasitəsi eyni zamanda, ölkəmizə qarşı qərəzli çıxışlar edən, sözdə müxalifətçilər kimi görünməyə çalışan xəyanətkar toplumlara qarşı da öz qətiyyətli, faktlara əsaslanan sözünü deyir. Bu kimi məsələlərdə YAP-ın sosial şəbəkə qrupları da kifayət qədər təcrübəli və peşəkar işlər ortaya qoymaqdadırlar..

YAP-da daha bir yenilik: Gender məsələləri şöbəsi

Başqa mühüm strktur dəyişiklikləri, yeni şöbələrin yaradılması da partiyadaxili islahatların davamı olaraq dəyərləndirilə bilər. Misal üçün, demək olar ki, hər zaman yeniləşmə və inkişaf istiqamətini öndə tutan YAP-da daha bir şöbənin - Gender məsələləri şöbəsinin yaradılması da bu reallığı əks etdirməkdədir. Bu, həm də təşkilat daxilində gender bərabərliyinin, o cümlədən, hüquqlarının tənzimlənməsi cəhəətindən çox mühüm amil kimi dəyərləndirilə bilər.

Yeni Azərbaycan Partiyasının Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ”Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu” mövzusunda keçirilən konfransdakı çıxışında vurğulayıb ki,

hakim siyasi partiya olaraq, ölkə Başçısının, partiya Sədrinin tapşırıqlarına uyğun olaraq bu sahədə işlər davam etdiriləcək.

Bütün bunlar isə əlbəttə ki, partiyanın idarəçilik mexanizmindəki müasirlik yüksək tərəqqi meyarlarının məntiqi nəticəsidir. Necə deyərlər, zaman yeniləndikcə, tələblər də yenilənir və zamana görə ayaqlaşır, bütün bunların müqabilində isə proqressiv fəaliyyətin mövcud olması şərtdir.

### YAP üzərinə götürdüyü vəzifələrin öhdəsindən qısa müddətdə, eləcə də uğurla gəlməyi qarşısına qətiyyətli məqsəd kimi qoyub

Bu şərtlərin həyata keçirilməsi isə YAP rəhbərliyi tərəfindən qısa müddətdə və uğurla rezlizə olunmaqdadır. Lakin hər şey bununla da başa çatmır. Artıq mövcud uğurlu proseslərdən həm də belə də nəticə hasil etmək olar ki, hakim siyasi təşkilatın bütün daxili strukturlarında - gənclər və s. qollarında rayon və şəhər təşkilatlarında, şöbələrində modern idarəçilik prisnipləri öncüllük təşkil edir. Daha dəqiq desək, yeni ideyalar, təkliflər və müzakirələr fonunda YAP üzərinə götürdüyü vəzifələrin öhdəsindən qısa müddətdə, eləcə də uğurla gəlməyi qarşısına qətiyyətli məqsəd kimi qoyub.

**Rövşən RƏSULOV**

---

# Fəxrəddin Altun: ”Azərbaycanın qazandığı şanlı qələbədən şərəf və məmnunluq duyuruq”



İstanbulda Türk Şurasının mediaforumu keçirilir. SİA bu barədə türk mətbuatına istinad edir. ”Bir il öncə Ermənistan Azərbaycana qarşı etnik, mədəni, siyasi və iqtisadi baxımdan növbəti dəfə hücuma keçmişdi. Biz qardaş Azərbaycanın 44 gün ərzində qazandığı şanlı qələbənin əldə olunmasında oynadığı roldan şərəf və məmnunluq duyuruq”.

Bu fikirləri Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) mediaforumunda çıxışı zamanı bildirib. Onun sözlərinə görə, Türkiyə Vətən müharibəsi zamanı yalnız mənəvi-maddi varlığı ilə Azərbaycanın yanında olmayıb: ”Biz müasir texnologiya əsrində Azərbaycana həm media dəstəyi, eyni zamanda, dezinformasiyaların yayılmasının qarşısının alınması istiqamətində də yardımçı olmuşuq. ”Qarabağ Azərbaycandır!”

Qeyd edək ki, tədbir Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə ”Köklü keçmiş, güclü gələcək” şüarı altında keçirilir.

# Həkim-infeksionist: 3-cü doza vaksinasiya sürətləndirilməlidir - ƏKS TƏQDİRDƏ....



“Azərbaycanda COVİD-19 virusunun bu mutasiyası bu günə qədər yoluxan olmayıb. Bu növ, əsasən, İsrail, Rusiya və Türkiyədə yayılmağa başlayıb. Biz bundan sonra da COVİD-19 virusunun yeni növlərini görəcəyik. Mutasiyaya uğramaq bu xəstəliyin bioloji xüsusiyyətidir”. Bu fikirləri SİA-ya açıqlamasında həkim-infeksionist Vüqar Cavadzadə deyib.

Həkimin sözlərinə görə, yeni mutasiya baş verdikdə ilk vaxtlar güclü yayılır: ”Bu da çox insanın xəstələnməsinə səbəb olur. Sonradan vaxt keçdikcə zəifləyir. COVİD-19 virusunun yeni mutasiyasına görə təşvişə düşməyə ehtiyac yoxdur. Ümumən, COVİD-19 virusuna yoluxanların əgər yan xəstəlikləri varsa, həmin şəxslər xəstəliyi ağır keçirirlər”.

V.Cavadzadə vurğulayıb ki, son günlər ölkəmizdə COVİD-19 virusuna yoluxanların sayı getdikcə artır: ”Hazırkı vəziyyətdə vətəndaşların daha intensiv vaksinasiya olunması vacibdir. Xüsusən, tibb işçiləri, xidmət sahələrinin işçiləri, yaşı 65-dən yuxarı şəxslərin 3-cü doza vaksinasiyası sürətləndirilməlidir. Ümumiyyətlə, hamı üçüncü doza peyvədi vurdurmalıdır. Həmçinin, insanların gigiyena qaydalarına riayət etməsi, sosial məsafə saxlaması, qapalı məkanlarda maskadan istifadə etməsi vacibdir”.

**Aysel Məmmədova**

# Professor Yücel Acer: “Ermənistan Azərbaycana qarşı ağır beynəlxalq cinayətlər törədib”

Ermənistan dövləti Azərbaycana qarşı istər işğal dövründə, istərsə də 44 günlük vətən savaşı zamanı dinc əhalini və mülki obyektləri hərbi hədəfə almaqla ağır cinayətlər törədib. Bütün bunlar beynəlxalq hüquq tərəfindən qadağan olunan və konkret məsuliyyət müəyyən edilən fəaliyyətlərdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə İnsan Haqları və Bərabərlik Təşkilatının (TİHEK) nəzdində yaradılan Qarabağda İnsan Haqları Müşahidə Qrupunun üzvü, Ankara Yıldırım Bəyazit Universitetinin professoru Yücel Acer söyləyib.

Müharibədən sonra Azərbaycanın işğaldan azad olunan bölgələrinə səfər etdiklərini, dəhşətli və utancverici vəziyyəti, amansız dağıntıları öz gözləri ilə gördüklərini diqqətə çatdıran professor Yücel Acer deyib: ”Qarabağda İnsan Haqları Müşahidə Qrupu bir illik fəaliyyəti əsasında müəyyən edib ki, Ermənistan dövləti Azərbaycana qarşı həyata keçirdiyi bəşəri cinayətlərlə insan haqlarının bütün təməl prinsiplərini tam şəkildə pozub. Təmsil olunduğum qrup həmin cinayətlərin mahiyyətini geniş şəkildə araşdıraraq hesabat hazırlayıb. Bütün bu bəşəri cinayətlərə görə Ermənistan dövləti birbaşa məsuliyyət daşıyır”.



Qeyd edək ki, TİHEK-in nəzdində fəaliyyət göstərən Qarabağda İnsan Haqları Müşahidə Qrupu işğaldan azad olunan ərazilərdə monitorinqlər aparıb və rəsmi məlumatlar əsasında Ermənistanın cinayətlərini özündə əks etdirən beynəlxalq səviyyəli hesabat təqdim edib.

# “SƏS” Media Qrupunun əməkdaşları ŞUŞADA!







***44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu böyük şücaət göstərərək 30 ildir erməni işğalı altında olan torpaqlarımızı geri qaytarıb. SİA xəbər verir ki, Azərbaycan Ordusunun savaş meydanındakı qələbəsi diplomatiya masasındakı zəfəri də şərtləndirib və beləliklə, 8 noyabrda Ermənistan tərəfi kapitulyasiya aktına imza atmağa məcbur qalıb.***




Bununla da Vətən müharibəsindəki möhtəşəm qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Ermənilərin iç üzü isə elə müharibədən dərhal sonra bir daha üzə çıxıb. Belə ki, işğal altında saxladıqları Azərbaycan torpaqlarını çapıb-talayaraq sanki bar-bar bir qəlibə kimi daşı-daş üstündə qoymayıblar.

Torpaqlarımızın işğaldan azad olunmasının 1 il tamamında həmin ərazilərdə aparılan quruculuq-abadlıq işləri isə görən hər kəsi heyrətə gətirir. Elə məhz, bu faktın özü Azərbaycanla Ermənistanın fərqini gözlər önünə qoyur. Bir daha görürük ki, bu iki ölkəni heç vaxt tərəzinin gözü ilə ölçməyə dəyməz. Çünki fərq çox aydındır.

Təbii ki, 30 ildir həsrətini çəkdiyimiz vətən torpağına ayaq basmaq, o səfalı diyarları öz gözləri ilə görmək hər kəsin arzusudur. Bu gün o arzunu reallaşdıranlardan biri də SƏS Media Qrupunun rəhbərliyi və işçi heyətinin bir qismidir. Hazırda şanlı Azərbaycan Ordusunun Şuşanı öz sahiblərinə qaytarmaq üçün irəlilədikləri Zəfər yolu Şuşaya doğru səfər ediblər.

***Aysel Məmmədova***

# Vətəndaşların sosial rifahına hesablanmış növbəti uğurlu addım



TƏHLİL

## Prezident İlham Əliyev: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

Ölkə əhalisinin rifah halının yaxşılaşdırılması Azərbaycan Prezidenti İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətinin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır. ”Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” - söyləyən Prezident İlham Əliyev hazırda da ölkə əhalisinin sosial-rifah halının yaxşılaşdırılması üçün mühüm qərarlar qəbul etməkdədir. Dəfələrlə aztəminatlı ailələrin və sosial qayğıya ehtiyacı olan əhali qrupunun sosial rifahının yaxşılaşdırılması üçün dövlət tərəfindən sosial paketlər həyata keçirilib, həmin kateqoriyadan olan vətəndaşlara dövlət dəstəyi və qayğısı heç zaman azalmayıb. Rəqəmlərə müraciət edək: 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əmək haqqı məbləği 39 faiz, əmək pensiyalarının orta məbləği 60 faiz, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezidentin təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb. Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5 faizdən 2020-ci ildə 38 faizə yüksəlib, yəni 2020-ci ilin yanvar-noyabr aylarında pensiya, müavinət və təqaüd, ünvanlı sosial yardım üzrə ödənilən vəsait 5 milyard 264 milyon manat təşkil edib. Ötən il pensiyaların orta aylıq məbləği 14 faiz artaraq 300 manat təşkil edib. Pensiyaların sığorta hissəsi 16,6 faiz indeksasiya edilərək artırılıb, 1,2 mln. artıq pensiyaçını əhatə edən bu artım üçün aylıq 43 mln. manat əlavə vəsait ödənilir. Vətəndaşlara ödənilən sosial müavinətdə 2020-ci ildə 18 faiz artım olub. Ötən il ünvanlı sosial yardım alan ailələrin sayı 9 min ailə artaraq ümumilikdə 74,4 min ailə təşkil edib. Hər bir ailəyə düşən orta aylıq məbləğ 2019-cu illə müqayisədə 15 faiz artaraq 238 manat təşkil edib. Sosial cəhətdən həssas təbəqə sayılan müharibə əlilləri və şəhid ailələrinə də 1500-ə yaxın mənzil və fərdi ev verilib. Bununla yanaşı pandemiya ilə əlaqədar məşğulluq və sosial rifaha dəstək üzrə tədbirlər əhalinin təqribən 5 milyon nəfərini əhatə edib. Özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilib və 12 min ailə proqrama cəlb olunub. Ümumilikdə bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə edib və onların gəlirləri çox əhəmiyyətli şəkildə artırılıb.

Prezident İlham Əliyev oktyabrın 16-da ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncam vətəndaşların sosial rifahına hesablanmış növbəti uğurlu addımdır. Sərəncamda ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasının aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biri olduğu vurğulanır, son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımların atıldığı qeyd olunur. Sənəddə deyilir ki, dünya miqyasında iqtisadi fəallığın bərpası və məcmu tələbin artması templərinin vaxtilə dayandırılmış istehsal, nəqliyyat-logistika və təchizat güclərinin iqtisadi dövriyyəyə qaytarılması sürətini xeyli üstələməsi beynəlxalq bazarlarda bir çox əmtəələrin qiymətlərinin əhəmiyyətli dərəcədə qalxmasını şərtləndirərək yeni çağırışlar yaradıb. Bu vəziyyət ölkəmizə idxal olunan əmtəələrin, o cümlədən bir sıra ərzaq məhsullarının qiymətlərinin artımına səbəb olur və nəticə etibarilə sosial baxımdan ən həssas əhali qruplarının rifah halına mənfi təsir göstərir.

## Bu islahat 1 milyonadək işçini əhatə edəcək

Sərəncamın icrası olaraq əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Həmçinin minimum əmək haqqı alanların da məvacibləri yüksəldiləcək. Bu islahat 1 milyonadək işçini əhatə edəcək. Pensiya və sosial müavinət artımı tədbiri isə 450 min şəxsə müvafiq sosial ödənişin artırılmasına imkan verəcək.Təqaüd artımı istiqaməti isə tələbələrin rifahına dəstək məqsədi daşıyır. Təqribən 130 minədək tələbənin təqaüdündə artım olacaq. Sərəncamın icrası ilə sosial ödəniş artımı həmçinin aztəminatlı əhali kateqoriyasına aid ailələri də əhatə edəcək. Ümumilikdə 1 milyon 800 min vətəndaşı əhatə edəcək sərəncam onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Bu, həm də onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə güclü bir dövlətə çevrilib, dövlətin və ölkə vətəndaşlarının mənafeyi ilə bağlı bütün addımları vaxtında atır. Bütün bu uğurlu sosial siyasət məhz son 18 ildə Prezident, Ali Baş Komandanımız İlham Əliyev cənablarının diplomatik siyasətinin reallığıdır ki, 30 illik həsrətə son qoyuldu. Sözsüz ki, bu, dövlət başçımızın dediyi kimi: ”Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik”.

***RƏFİQƏ KAMALQIZI***

# Niyə qadınlar kişilərdən çox yaşayır?

***Aydındır ki, kişilər dünyaya gəldikləri andan etibarən əhalinin yarısından daha tez öləcəklər. Səbəb onların cinsidir. Kişi olduqları üçün qadınlardan orta hesabla üç il daha az yaşayacaqlar. Bəs, niyə bu belədir, niyə kişilər qadınlardan daha az yaşayır? Bu fərq onilliklər ərzində məlumdur, ancaq bu suala cavab tapmaq üçün yalnız indi addımlar atılır.***



Bu mövzuda ilk fikirlərdən biri, kişilərin ağır iş şəraiti səbəbindən vaxtından əvvəl öldüyü idi. Mədənlərdə işləyən və torpağı becərən adam bədəninə əlavə ağırlıq verirdi və illər keçdikcə bunun təsirini görürdü. Ancaq problem bu olsaydı, kişi və qadınların oxşar şərtlərdə işlədiyi bir vaxtda boşluq bağlanmalı idi.

Ancaq cəmiyyətdəki böyük dəyişikliklərə baxmayaraq, kişi və qadın arasındakı orta ömür fərqi eyni olaraq qaldı. Məsələn, 1800-cü ildə İsveçdə orta yaş qadınlar üçün 33, kişilər üçün 31 yaş idisə, bu gün müvafiq olaraq 83.5 və 79.5 -dir. Hər iki halda da qadınlar kişilərdən 5 faiz daha uzun yaşayır

## Həyat tərzidirmi?

Mütəxəssislər, bu fərqin hər bir ölkədə hər il qorunub saxlanıldığını və bunun insan biologiyasında ən sabit tendensiya olduğunu bildirirlər.

Kişilərin bədənlərinə qarşı daha pis niyyətli olduqlarını sübut etmək də mümkün deyil. Siqaret, spirt və piylənmə kimi faktorlar fərqli ölkələrdə bu fərqin az və ya çox olduğunu müəyyən edə bilər. Məsələn, alkoqol və siqaret səbəbiylə Rusiyada kişilərin ömrü qadınlardan 13 il qısadır.

## Xromosomlar?

Görünür bu sualın cavabı təkamüldür. Mütəxəssislər, sosial faktorların və həyat tərzinin də vacib olduğunu, ancaq qocalmanın əsas müəyyənedicisinin biologiyamızda olduğunu düşünürlər.

Hər bir hüceyrənin DNT-sindəki xromosomlarda bir çox potensial mexanizm var. Xromosomlar cüt-cütdür. Qadınlarda iki X xromosomu, kişilərdə X və Y xromosomları var.

Bu fərq hüceyrələrin yaşlanmasını dəyişir. İki X xromosomuna sahib olduqları üçün qadınlar hər genin nüsxələrini saxlayır. Yəni bir gendə problem varsa, bir ehtiyat var. Kişilərdə isə belə bir əlavə yoxdur. Bu səbəbdən, zaman keçdikcə daha çox hüceyrə məhv olur və bu da kişiləri xəstəlik riski altına qoyur.

Digər izahlar arasında "tempo ilə qaçan qadın ürəyi" hipotezi də var. Qadınların menstrual dövrünün ikinci yarısında ürək dərəcəsi sürətlənir və bu, yüngül məşq effekti verir. Buna görə də ürək-damar xəstəlikləri daha gec yaşda baş verir.

Bədən ölçüsü də bir faktor ola bilər. Uzun boyluların hüceyrələri daha çoxdur. Bu, hüceyrələrin mutasiya riskini artırır. Bundan əlavə, daha böyük bədənlər daha çox enerji istehlak edir və onun tullantıları bədəndə daha çox aşınmaya səbəb olur. Kişilər daha uzun boylu olduqları üçün uzun müddətdə daha çox zərər görürlər.

## Hormonların təsiri var?

Ancaq bəlkə də əsl problem kişilərə səs, artıq saç və keçəllik kimi digər xüsusiyyətlər verən testosteron hormonundadır. Testisləri çıxarılan insanların daha uzun yaşadıqlarına inanılır, baxmayaraq ki, digər kəsilmiş kişilər müayinə edildikdə fərq o qədər də aydın deyildi.

London UCL Universitetindən David Gem inanır ki, yetkinlik yaşına çatanda kişilər artıq gördükləri ziyanı görmüşlər. 20-ci əsrdə ABŞ -da ruhi xəstəxanalarda yatan kişilərin bəziləri məcburi sterilizasiyaya məruz qaldılar. Bu kişilər 15 yaşından əvvəl müalicə alsalar, digər məhbuslardan daha uzun yaşadıqları müşahidə edilmişdir.

Testosteron bədəni qısa müddətdə gücləndirsə də, səbəb olduğu dəyişikliklər insanı daha yaşlı yaşlarda ürək xəstəlikləri, infeksiya və xərçəngə qarşı daha həssas edir.

Qadın cinsi hormonu estrogen "antioksidan" rolunu oynayır və hüceyrələrə zərər verən zəhərli kimyəvi maddələri təmizləyir. Heyvanlar üzərində aparılan təcrübələrdə, yumurtalıqları çıxarılanların hüceyrə təmirini yetərincə edə bilmədikləri üçün daha az yaşadıqları görülüb.

Mütəxəssislər bunu təkamül mükafatı ilə əlaqələndirirlər. Kişilər və qadınlar genlərini ötürmə şanslarını artırırlar. Cütləşmə zamanı qadınlar testosteronlu dominant kişini seçirlər və uşaqlar dünyaya gəldikdən sonra kişilər söz mövzusudur. Nəsilə davam edəcək uşağın rifahı ananın bədəni ilə bağlı olduğundan, atasından daha sağlam olması vacibdir.

Dünyada qadınlar kişilərdən daha uzun yaşayır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2016-cı ildə dünyada orta ömür uzunluğu 72 idi. Ancaq cinsiyyətə görə bölüşdürüldükdə, ömür uzunluğu qadınlar üçün 74 il 2 ay, kişilər üçün isə 69 il 8 aydır.

2010-cu ildə edilən bir araşdırmaya görə, ABŞ-da 100 yaşdan yuxarı 53.364 nəfər yaşayır. Bu insanların yalnız 9162 nəfəri kişidir. Onlardan 44 min 202-si qadındır.

Niyə qadınlar, ümumiyyətlə, kişilərdən daha uzun yaşayırlar? Onlara bu üstünlüyü verən nədir?

İlk 3 səbəbi nəzərdən keçirək.

**1. Genlər**

İnsan ölümləri ilə bağlı məlumatlar toplayan İnsan Ölüm İndeksi 40-dan çox ölkədən məlumatlara malikdir. İsveç və Fransa kimi ölkələrdə bu məlumatlar 1751 və 1816-cı illərə aiddir. Ancaq Yaponiya və Rusiya üçün məlumatlar yalnız 20-ci əsrin ortalarından başlayır.

Ancaq hər il hər bir ölkədə verilənlər bazasında qadınların doğum müddəti kişilərə nisbətən daha yüksəkdir. Kişilərin genetik quruluşuna görə finiş xəttinə daha yaxın olduğu görünür.

## Embrionlar

Londondakı UCL Universitetinin professoru David Gems "Kişi embrionları qadın embrionlarından daha sürətli nəsli kəsilir" deyir. Səbəblərdən biri cinsiyyətimizi təyin edən xromosomların oynadığı rolda ola bilər.

Qadınlarda XX, kişilərdə XY xromosomları var.

Xromosomlarda genlər var.

X xromosomlarında sağ qalmağınızı təmin edəcək bir çox gen var.

X xromosomunda genetik bir qüsur varsa və qadınsınızsa, bir ehtiyata sahibsiniz. Ancaq kişi olsanız, ehtiyatınız yoxdur.

Exeter Universitetindən Lorna Harries, "Oğlan körpələrin hamiləlikdə daha sonra ölmə ehtimalının yüzdə 20-30 ilə daha çox olduğunu, erkən doğulma ehtimallarının yüzdə 14 daha çox olduğunu" söyləyir.

**2. Hormonlar**

Yetkinlik dövründə, oğlan və qızlar, hormonal dəyişikliklərdən asılı olaraq kişi və qadına çevrilir. Bədəni daha böyük və güclü edən testosteron hormonu kişilərin bir çox xüsusiyyətlərindən məsuldur.

Son yetkinlik illərində testosteron hormonunun artdığı anda ölüm nisbətləri də artır. Mütəxəssislər bunun kişilərin döyüş, yüksək sürətlə velosiped sürmə və intihar kimi riskli fəaliyyətlərindən qaynaqlandığını söyləyirlər. Bir neçə il əvvəl koreyalı alim Han-Nam Park, Chosun sülaləsinin 19-cu əsrin ətraflı qeydlərini təhlil etdi. O, yetkinlik yaşına çatmamış kastrasiya edilmiş 81 nəfərin təfərrüatlarını araşdırdı.

Onun təhlili göstərdi ki, məhkəmədəki digər kişilər orta hesabla 50 il yaşadıqları halda, təxminən 70 il yaşadılar. Hətta 3 xadim 100 yaşını belə gördü. Ebuchs ilə bağlı digər araşdırmalar belə dramatik fərqlər tapmasa da, testisləri olmayan insanlar ümumiyyətlə daha uzun yaşayırlar.

Heyvan təcrübələri, östrojen çatışmazlığı olan qadınların digərləri qədər uzun yaşamadığı anlamına gəlir.

İspaniyalı tədqiqatçılar, 2005-ci il məqaləsində östrojenin uzunömürlülüklə əlaqəli genləri artırdığını irəli sürmüşlər. Estrogen də ürək xəstəliklərindən qoruya biləcək pis xolesteroldan xilas olmağa kömək edir.

**3. İş və davranış**

Münaqişədən təsirlənən bölgələrdə kişi ömrü azalır. Kifayət qədər sağlamlıq xidmətinin olmadığı yerlərdə bir çox qadın doğuş zamanı ölür.

Siqaret çəkmək, içmək və həddindən artıq yemək cins fərqinin ölkədən ölkəyə niyə bu qədər geniş dəyişdiyini izah edə bilər. Məsələn, Rusiyada kişilər qadınlardan 13 il əvvəl ölür. Bunun səbəblərindən biri də həddindən artıq alkoqoldur. Daha uzun, lakin sağlam deyil.

Ancaq bu, qadınların tamamilə qazanclı olduğu anlamına gəlmir. Qadınlar daha uzun yaşasalar da, xüsusilə, yaşlılıq dövründə xəstəliklərlə daha çox qarşılaşırlar.

Müxtəlif ölkələrdə 16-60 yaş arası qadınlar eyni yaşdakı kişilərdən daha çox həkimə müraciət edirlər.

Alabama Universitetindən Steven N. Austad və Kathleen E. Fischer tərəfindən nəşr olunan bir məqalədə "Qərb cəmiyyətlərindəki qadınlar daha çox həkimə müraciət edir, daha çox dərman qəbul edir, iş yerində daha çox xəstəlik məzuniyyəti alır və xəstəxanada daha çox vaxt keçirirlər".

## Boşluq yaxınlaşır

Son araşdırmalar, cinslər arasında ömrünün tezliklə bağlanacağını göstərir. İngiltərədə aparılan bir araşdırmada, 2030-cu ilə qədər kişi ilə qadın arasındakı fərqin 1 il 9 aya enəcəyi bildirilir. İngiltərənin Milli Statistika İdarəsinə görə bu gün İngiltərədə doğulan bir oğlan uşağının 79 il 2 ay, bir qız uşağının isə 82 il 9 ay yaşayacağı gözlənilir. Başqa bir araşdırma göstərir ki, 2032-ci ildə qadın və kişilərin ömrü üst-üstə düşəcək.

Araşdırmaya rəhbərlik edən professor Les Mayhew, "Guardian" qəzetinə verdiyi müsahibədə, "Tütün və spirt istehlakının azalması qadınlardan daha çox istehlak edən kişilərə fayda verdi" dedi. Yol qəzalarının azaldığı ölkələrdə kişilərin ömrü uzanmalıdır. SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib.



# "Füzuli rayonu artıq yeni mərhələyə qədəm qoyur"

*"Füzuli rayonunun uzun müddət işğalda olan əraziləri, o cümlədən Füzuli şəhəri ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb. Bu gün əslində Füzuli şəhəri, eyni zamanda uzun müddət işğal altında olan kəndləri xarabalığa çevrilib". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar Bayramov deyib.*



Onun sözlərinə görə, praktiki olaraq bu gün Füzuli şəhərində salamat hər hansı bir bina qalmayıb: "Ermənilərin dağıtdığı və xarabalığa çevirdiyi Füzuli şəhəri artıq ölkə Prezidentinin rəhbərliyi ilə yenidən qurulur. Şəhərin təməlqoyma mərasiminin keçirilməsi də ondan xəbər verir ki, Füzuli şəhəri yenidən daha müasir standartlara uyğun formada və ağıllı şəhər prinsipinə uyğun olaraq yenidən canlanacaq. Rayon strateji baxımdan Qarabağın vacib bölgələrindən biridir. 44 günlük savaşda Füzuli şəhərinin işğaldan azad olunması müharibənin sonlandırılmasında və zəfərimizin əldə edilməsində xüsusi əhəmiyyətə malik oldu. Bu baxımdan artıq işğaldan azad olunmuş ərazilərimizdə yeni mərhələ başlayır. Füzuli şəhərində inşa edilən beynəlxalq hava limanı nəticə etibarilə həm Füzulini Qarabağın hava qapısına çevirir, həm də bütövlükdə işğaldan azad olunmuş ərazilərimizin potensialından istifadə edilməsinə imkan yaradır".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, artıq Füzuli şəhərində nəqliyyat və loqistik infrastrukturu formalaşıb: "Yalnız beynəlxalq hava limanı deyil, eyni zamanda Füzulidən Şuşaya qədər çəkilən və istismara hazır olan Zəfər yolu, Füzuli-Hadrut, Füzuli-Zəngilan və dəmir yolu xətlərinin çəkilməsi ondan xəbər verir ki, Füzuli rayonunda kifayət qədər yeni infrastruktur formalaşıb. Nəqliyyat və loqistik infrastrukturu həm də rayonun deyil, bütövlükdə bölgənin inkişafı baxımından vacib hesab olunur. Digər tərəfdən nəzərə alsaq ki, Füzuli rayonu həm də formalaşmış infrastrukturla Cəbrayıl və Zəngilan vasitəsilə Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Bu da təbii ki, beynəlxalq yükdaşımaların, həm də bütövlükdə regionun inkişafı baxımından vacib istiqamətlərdən biri kimi qiymətləndirilir. Artıq cənab Prezident tərəfindən təsdiq olunmuş layihələr və əsası qoyulmuş şəhər və digər vacib infrastruktur proqramlarında həm də iş yerlərinin yaradılması əsas prioritet məsələlərdəndir. Füzuli şəhəri işğaldan azad olunmuş ərazilərimizin ikinci ən böyük şəhəri olacaq. 50 minlik sakini olan Füzuli şəhərində sənaye və eləcə də xidmət, aqrar sektorda istehsal sahələri formalaşıb. Bir sözlə Füzuli rayonu artıq yeni mərhələyə qədəm qoyur".



***Arzu Qurbanzadə***

**Yazıçı kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov** məsələyə belə münasibət bildirib: "Tarixən qadınlar kişilərə nisbətən daha çox ömür sürüblər. Bunun bir çox səbəbləri var. Səbəbləri sosioloqlar, psixoloqlar, cəmiyyətşünaslar müxtəlif tərəflərə yönəldərək izahını verirlər. Bunun həm ailə-məişət, həm ictimai-siyasi, sosial-psixoloji, iqtisadi səbəbləri var.

Bildiyimiz kimi, bəşəriyyət cəmiyyətləşməyə başlayanda insanlar fərdiyyətdən topluma keçəndən sonra hər zaman həm iqtisadi baxımdan, həm torpaqları zəbt etmək baxımından həm də digər səbəblərdən mənafe toqquşmaları, müharibələr, məhəlli və beynəlxalq dünya müharibələri baş verib və bu müharibələrin böyük əksəriyyətində də ancaq kişilər döyüşçü, sərkərdə, şah, kral olaraq iştirak edib. Çoxlu sayda kişilər bu müharibələrdə məhv olub gediblər.

Kişi qadına nisbətən möhkəm cinsin nümayəndəsi sayılır. Çöldə, bacada müxtəlif davalarda, münaqişələrdə iştirak edib, qəzalarda, texnogenik qəzalarda birinci növbədə məhv olublar. Çünki kişilər özlərinə rəva bilmirlər ki, hansısa bir çətinliyi görüb qaçıb aradan çıxsınlar. Amma qadınlar bunu yaxşı bacarırlar.

Müharibələrdə çoxsaylı ölüm faktı, ümumiyyətlə, statistik rəqəmlərə təsir edir və qadınlarla kişilər arasında orta səviyyədə götürülən uzunömürlülük və orta yaş məsələsində kişilərin deyil, qadınların qabağa düşməsinə səbəb olur. Digər tərəfdən, kişilər psixoloji varlıq olaraq, möhkəm varlıq sayılsalar da bu yalnız fiziki olaraq möhkəm görsənir. Psixoloji və eyni zamanda mənəviyyat baxımından kişilər çox zəifdilər və baş verən hadisələr onlara daha çox təsir edir. Bu təsir nəticəsində də hətta son araşdırmalara görə koronaya tutulanlar arasında qadınlara nisbətən kişilər daha çoxdur. Bu araşdırmalar da göstərir ki, kişilər cəmiyyətdən, kosmosdan, günəşdən gələn müxtəlif dalğalar, radiasiyalar, zərbələr, müxtəlif mənfi təsirlərə daha tez tuş gəlirlər, nəinki qadınlar. Çünki kişi çöldə-bayırda olur. Qadınlar isə daha çox evdə olur. İstər-istəməz qadınlar özlərini qoruya bilirlər, kişilər isə qoruya bilmirlər.

Digər tərəfdən kişilər ağlaya, içindəki dərdi kiməsə söyləyə bilmir. Bunu yalnız fiziki olaraq davada göstərə bilər. Amma daxilən içi bir boşluq olur və tənhalığa çəkilir. Lakin qadınlarda biz bunu müşahidə etmirik. Qadınlar əksinə bir şey olan kimi ağlayırlar, göz yaşlarını tökürlər, psixoloji olaraq özlərini sakitləşdirirlər və fiziki olaraq da beyin təzələnir. Beyni təmizləmək bütün orqanizmi təmizləmək deməkdir. Qadınlar buna görə də çox yaşayırlar.

Ata obrazı bizdə ana obrazına nisbətən daha zəifdir. Çünki qazanan ata olsa da, yemək bişirən və sənə sevgi göstərən, xəstələnəndə başını sığallayan anadır. Bu baxımdan, kişilərin obrazı möhkəmdir. Bizim beynimizdə belə bir fikir var ki, ata sarsılmazdır və ata nə vaxt xəstələnir, ayağı büdrəyir, ata ağrıyırmı, kişi ağrıyırmı deyilən bir ifadə yoxdur. Yəni, biz ona o qədər də əhəmiyyət vermirik.

Kişilər son anda xəstəxanaya gedərlər, amma eybi yox, ailəmə görə dözərəm deyib gözləyirlər. Üstəlik, kişilərin iş şəraitinə baxın, qadınların iş şəraitinə baxın. Qadınlar əsasən asan və fiziki cəhətdən yüklənməyən sahələrdə çalışırlar. Amma kişilər mədənlərdə, ən ağır işlərdə, hərbidə, polisdə, metroda və s. ağır işlərdə ancaq əksəriyyət kişilər işləyir. Üstəlik də kişilərin işlərinin çox hissəsi həm fiziki cəhətdən, həm oturaq iş olduğuna görə müxtəlif xəstəliklərə səbəb olur. Buna peşə xəstəlikləri deyirlər və bu da kişilərin ömrünü azaldır.

Fikir versəniz bizdə ata obrazı ana obrazından daha zəif olduğuna görə, hətta beynimizdə belə bir psixoloji amil var ki, ata öləndə adam özünü yetim hiss etmir, amma ana öləndə adam özünü yetim hiss edir. Yəni, ana obrazı o qədər möhkəmdir. Amma biz bunu kişilərə şamil edə bilmirik və kişilərin də sadəcə bir insan, fərd, ətdən, qandan olduğunu dərk etmək istəmirik. Kişilərə olan bu yad, qaba münasibət ona gətirib çıxarır ki, kişilərin ömrü qadınların ömrünə nisbətən daha az olur.

Azərbaycan cəmiyyətində bu, ümumiyyətlə, qabarıq görsənir. Kişi ağlaya bilməz, kişi zəif ola bilməz, kişi öz dərdini kiməsə söyləyə bilməz. Eyni zamanda, sən kişisən, sən döyüşməlisən, vuruşmalısan, müharibəyə, əsgərliyə, hərbiyə getməlisən, ən ağır işləri sən görməlisən, gecə-gündüz çalışmalısan, ailəni dolandırmalısan və s. Bu da əlbəttə ki, kişinin bir fərd olaraq məhvinə aparıb çıxaran amillərdən biridir. Ona görə də, bizdə kişilər daha az yaşayır, uzunömürlü olmurlar, amma əksinə, qadınlarımız uzunömürlü olur.

Digər problem isə kişilərin ümumiyyətlə, zatən əvvəllər də, indinin özündə də qadınlara nisbətən say etibarilə çox olmasıdır. Birinci fikir verin, pandemiyalarda, müharibələrdə epidemiya və xəstəlik çöldə, bayırda olan kişini daha çox tutur, nəinki qadınları. Əgər qadın az doğulsa belə indi də bilirsiniz ki, doğuşları süni surətdə ləğv edilməsi gedir. Hətta qadın, qız uşaqları az doğulsa belə kişilər yaşlaşdıqca daha çox ölürlər və üstəlik, digər məsələlər də var. Kişilərin xəstə, əlil olması, qəzalarda, müharibələrdə kütləvi surətdə qırılması bu uzunömürlülük məsələsinə təsir edir.

Mən, ümumi statistik məlumatlardan çıxış edib bunu deyirəm. Amma fərd olaraq kişilərin özlərinə baxmaması da problem yaradır. Məsələn, fikir verin, az sayda olar ki, qadınlardan tər qoxusu gəlsin, amma kişilərdən tər qoxusu gələndə biz deyirik ki, zəhmətkeşdir, işləyir. Halbuki, kişi özünə gigiyenik olaraq baxmağa imkanı yoxdur. Kişi öz yeməyinə, gigiyenik təmizliyinə fikir vermir, vaxtı vaxtında çimmir, yorğun olur yatır. Üstəlik də spirtli içki aludəçisi olmaq, narkotik vasitələrdən, tütün məmulatlarından istifadə etmək, ət yeməklərini daha çox yemək, vitamin və digər minerallarla dolu qidaları qəbul etməmək kişilərin ömrünü qısaldır. Eyni zamanda, kişilər qadınlara nisbətən özünün həm dərisi, həm üstbaşını səhmana salmaq üçün kosmetik vasitələrdən demək olar ki, istifadə etmirlər.

İndi oğlanlar arasında saqqal və uzun saç saxlamaq dəb olub. Saqqal və uzun saç da bilirsiniz ki, nə qədər onların bioloji rolu olsa da, amma onlar həm də ölü hüceyrələrdir, müxtəlif bakteriyaları və xəstəlikləri özündə daşıyan bir hissədir. Əgər sən hər gün çimmirsənsə saqqalın da, saçın da sənin ömrünü qısaldacaq. O qədər çoxsaylı səbəblər var ki, biri- ikisi ilə izah etmək olmaz. Bunun üçün uzun müddət beyin mərkəzləri qərbdə və SSRİ-də çalışırdılar ki, biraz bunları azaltsınlar. Amma, insan cəmiyyətində olan beyinlərində daşlaşmış həmin o ideya ki, kişi kişi olmalıdır qadın da qadın olmalıdır. Bu prinsip əlbəttə ki, bu məsələdə çox önəmli rol oynayır. Üstəlik, son vaxtlar bilirsiniz ki, uniləşmə gedir. Yəni, bu translaşma deyil, bu uniləşmədir. Bu kişi və qadın arasındakı bəzi münasibətlərin birləşdirilməsi sintezindən ibarət olan eyni insan növünün yaranmasına gedir.

Yaponiyada və bir çox qərb ölkələrində biz artıq uniləşmənin mənfi və müsbət tərəflərini görürük. Mənfi tərəfi odur ki, kişilər artıq evlənmək istəmir, kişilər də qadınlar kimi kosmetik vasitələrdən istifadə edirlər, daha çox idman zallarına, gözəllik salonlarına getməklə məşğuldurlar. Kişilər evlənmirlər, ailə yükünü çəkmək istəmirlər, ağır işlərdə işləmirlər. Əksinə deyirlər ki, əgər bu işi avtomatikləşdirmək, robotlaşdırmaq mümkündürsə, niyə mən işləməliyəm qadın yox?! Ona görə texnoloji yeniliklər olur, amma digər tərəfdən insanın bioloji varlıq olaraq ilkinliyinə xələl gəlir. Ona görə də ən çox Yaponiyada intihar halları baş verir. Amma kişi qadın uzunömürlülük məsələsində yəni, artıq bərabərləşməni biz görürük".

**Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Lalə Mehralı:** "Araşdırmaçı alimlər, həkimlər və bu işlə məşğul olan mütəxəssislər, adətən, qadınların kişilərdən çox yaşamasına bir yox, bir neçə səbəb göstərirlər. Onun bir səbəbi xromosomlardır, digəri gendir, növbətisi qadın-kişi davranışıdır. Yəni, səbəb çoxdur.



Qadınlıq xromosomları kişi xoromosomlarına nisbətən daha uzun ömürlüdür. Kişilərdə keyfiyyət baxımından xromosom tez bitirsə, qadında bu belə deyil. Qadının daha uzun yaşatma və yaşama bacarığı var. Daha sonra zərərli vərdişlərdən alkoqol, narkomaniya da kişilərin ölümünü sürətləndirir. Bunların hərəsinin öz təsiri var. Hətta mən bir dəfə bir məqalə oxumuşdum ki, orada erkən ölüm səbəblərindən biri də kişilərin daha çox münaqişə, dava etmələri göstərilir. Həmçinin, daha sürətlə avtomobil idarə etmə də kişilərdə ölüm riskini artırır. Yəni, adrenalinə bağlı olaraq daha sürətli yaşlanma gedir.

Hətta mən bir araşdırma da oxumuşdum ki, dünyaya uşaq gətirən qadınların yaşama müddəti öz həmyaşıdlarına nisbətən daha çox olur. Yəni, söhbət təbii yolla doğuş edən xanımlardan gedir.

Ən çox yayılmış səbəblərdən biri də kişilərin öz emosiyalarını içlərində yaşamasından irəli gəlir. Qadın kədərlənəndə və yaxud sevinəndə bunu rahatlıqla büruzə verir. Məsələn, qadın stresini ağlamaqla ata bilir. Kişilər isə bunu daxilən yaşayırlar. Ona görə də kişilərdə ürəklə bağlı xəstəliklərə daha çox rast gəlinir".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Statistikaya görə, qadınlar kişilərdən çox yaşasalar da, lakin son vaxtlar qadınların da erkən ölümünə rast gəlinir. Qadınlar daha emosoyanal olduqlarına görə, əsəbini və kədərini rahatlıqla büruzə verir. Yəni, qadınlarda daxili qapanma daha azdır.

Qadınlar kişilərə nisbətən daha çox danışır, danışdığına görə də içindəki neqativləri çıxara bilir. Kişilər isə daha çox məntiqi düşünür və hərtərəfli analiz edir. Ailənin maddi-mənəvi yükü də kişinin üzərindədir. Ona görə də onlarda ölüm halları daha çoxalır. Ümumiyyətlə, kişilərin sinir sistemi elə qurulub ki, 40-45 yaş arasında onlarda ürək tutmaları və infarktlar daha çox özünü göstərir.

Həmçinin, kişilərin siqaretdən istifadə etməsi, gərgin işlə məşğul olması, gecə gec gəlməsi, səhər tezdən oyanıb işə getmələri və normal yuxu, qida rejiminin olmaması onların yuxu rejimini azaltmış olur".

***Ayşən Vəli***

# İrəvanın Bakıya qarşı revanşçı hissləri sönməyib




## Britaniyalı ekspert: "Ermənistan özünü islam regionunun ortasında qalmış xristianlığın müdafiəçisi kimi təqdim edir"

ŞƏRH+ANALİTİKA

***Bakının, eləcə də bir sıra siyasi mərkəzlərin çoxsaylı siqnallarına rəğmən İrəvanın sülh müqaviləsini imzalamaqdan ciddi-cəhdlə yayınması, həmçinin Ermənistanın müxtəlif siyasi dairələrinin əksinə - revanş xarakterli fikirlər səsləndirmələri belə qənaətə gəlməyə zəmin yaradır ki, qarşı tərəf ümumiyyətlə sülh tərəfdarı olmaması ilə yanaşı, həm də yeni münaqişənin əmələ gəlməsinə şərait yaradır.***

Baxmayaraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda sülhə yaxın olan bəyanatlar səsləndirdi, lakin həmin bəyanatların da hələ ki, söz yığnağından başqa bir şey olmadığı göz önündədir.Mövzu ilə bağlı Böyük Brtitaniyadan olan jurnalist konfliktoloq, Ermənistan-Azərbaycan münaqişəsi üzrə ixtisaslaşmış ekspert Nil Uotson maraqlı fikirləri ilə yadda qalıb. SİA xəbər verir ki, "Caliber"ə müsahibə verən britaniyalı jurnalist sözügedən məsələnin səbəblərini araşdırıb. Onun sözlərinə görə, Ermənistanda demoqrafik böhran müşahidə olunur və bu paralel olaraq müharibə çağırışlarını da nümayiş etdirir, belə ki, İrəvan tamamilə diasporanın dəstəyindən istifadə edir."Bundan əlavə, erməni təbliğatının gücü ondan ibarətdir ki, Ermənistan özünü islam regionunun ortasında qalmış xristianlığın müdafiəçisi kimi təqdim edir, halbuki Azərbaycanda multikulturalizm kifayət qədər inkişaf edib. Ermənistan 1915-ci il "genosidinə" aid mifləri bütün dünya üzrə yayır və bu məsələdə də Qərbə arxalanır.

### Fransa, ABŞ və Rusiya erməni diasporunun beşiyidir

Minsk qrupunun Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması yönündəki fəaliyyətinin iflasa uğraması ilə bağlı fikirlərini açıqlayan jurnalist-ekseprt bildirib ki, bunun əsas səbəbi Fransanın, ABŞ-ın və Rusiyanın bu quruma həmsədrlik etmələri olub. "Bu ölkələr erməni diasporunun beşiyidirlər ki, erməni tərəfinə loyal davranıblar. Nəticədə biz uzun illər ATƏT-in Minsk qrupunun qeyri-effektli fəaliyyəti nəticəsindəki vəziyyəti müşahidə etdik. Hansı ki, BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnaməsində aydın şəkildə yazılmışdı ki, təcavüzkar ölkə olan Ermənistan hansı öhdəlikləri yerinə yetirməlidir, amma onlar da kağız üzərində qaldılar", deyə o bildirib.

### Revanş məsələsində Ermənistanın əsas müttəfiqləri Rusiya və İrandır

Ermənistanın əsas müttəfiqlərindən biri də onu silahla təmin edən, ərazisində hərbi bazaları olan, infrastrukturlarına və energetikasına nəzarət edən Rusiya və Bakıya qarşı köklənən, Cənubi Azərbaycanda 30 milyon etnik azərbaycanlının yaşadığı İrandır", qeyd edən britaniyalı jurnalist Zəngəzur dəhlizi ilə bağlı da mülahizələrini irəli sürüb. Nil Uotsona görə, bu nəqliyyat dəhlizi Naxçıvan Muxtar Respublikasını Ermənistan üzərindən Azərbaycanın yerdə qalan hissəsi ilə bağlayır. Ermənistanın adıçəkilən dəhlizin açılmasına qarşı çıxmasının səbəbi isə onunla bağlıdır ki, Azərbaycan ərazi iddiaları ilə çıxış edə bilər. Halbuki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Ermənistana qarşı heç bir ərazi iddialarının olmadığını bəyan edib.İrəvanın Bakıdan revanş almasına, eləcə də bunu etmək üçün gücünün yetib-yetməyəcəyi məsələsinə gəldikdə isə britaniyalı jurnalist və konfliktoloq-ekspert hesab edir ki, əgər Paşinyan Rusiyaya qarşı münasibətini dəyişərsə, ya da misal üçün, Ermənistanda ruspərəst hökumət seçilərsə, bu zaman İrəvanın revanşı real görünər, çünki belə olan vəziyyətdə ermənilərin arxasında Rusiya və İran hərbi gücləri dayana bilər.

### Azərbaycan Qərbdən dəstək üçün BMT və s. kimi təşkilatlardan üçtərəfli bəyanatın realizəsinə görə vədlər almalıdır

Nil Uotson Ermənistanın üçtərəfli bəyanatın bəndlərinə əməl etməsinə üçün İrəvanın buna məcbur edilməli olduğunu deyib və bildirib ki, hazırda "kövrək sülhə" Rusiya "sülhməramlıları" tərəfindən nəzarət olunur və bu da Azərbaycanın öz müstəqilliyini əldə etməsindən sonra ilk rus ordusudur ki, orada yerləşib. O cümlədən, Rusiya-Türkiyə monitorinq mərkəzi də Azərbaycan ərazisində fəaliyyət göstərir. "Azərbaycan Qərbdən dəstək üçün BMT və s. kimi təşkilatlardan üçtərəfli bəyanatın realizəsinə görə vədlər almalıdır. Lakin əvvəlcə diasporanın dəstəyi ilə yürüdülən erməni təbliğatına qarşı dayanmaq vacibdir. Mən isə öz tərəfimdən Azərbaycan xalqına uğurlar arzulayır və məcburi köçkünlərin öz evlərinə dönmələrini səbrsizliklə gözləyirəm", deyə britaniyalı jurnalist müsahibəsində bildirib.

*R. Nurəddinoğlu*

# POLİTOLOQ: "Bu faktor İranı geriyə addım atmağa məcbur elədi"



***Bəli, son günlər İranla Azərbaycan arasında yaranan müsbət tendensiya və münasibtlərin nisbətən normala düşməsi Azərbaycanın haqlı tərəf olduğunu təsdiq edir. Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.***

Politoloqun sözlərinə görə, İranla Azərbaycan arasında münasibtlərin nisbətən normala düşməsi Azərbaycanın həm diplomatik cəhətdən daha hazırlıqlı olduğunu, eyni zamanda beynəlxalq şərtlərin də Azərbaycanın xeyrinə işlədiyini açıq şəkildə göstərir.

"Birincisi, Azərbaycan öz ərazilərini işğaldan azad edib, uzun illər işğal altında qalmış torpaqlarını öz ərazisi daxilinə qatıbdır və burada Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə tam əməl edibdir. İkincisi, Azərbaycan İrana qarşı hərhansı bir ərazi iddiası etməyibdir, Azərbaycan İranla hər zaman mehriban qonşuluq, dostluq münasibətləri qurub və bu gün də o fikirdə qalır, bundan sonra da Azərbaycan həm qonşu, həm də region dövlətləri ilə mehriban münasibətləri göstərir. Üçüncüsü isə, regional şərtlər və region laktorları artıq İranı haqsız tərəf olaraq qəbul etdi və həm Türkiyədən, həm Rusiyadan, həm də digər region dövlətlərindən İrana qarşı bəzi təzyiqlər olundu və İranın haqsız olduğu üzünə deyildi. Bu Lavrovun Abdullahianla görüşündə də məlum oldu, Türkiyə tərəfin verdiyi bəyanatda da, Pakistanın İranla sərhəddə qoşun gətirməsində də və sair göstərildi.

Eyni zamanda Azərbaycan hər şeyi açıq şəkildə ortaya qoymaqla məsələni birincisi aydın elədi və bu bir daha onu göstərdi ki, Azərbaycan istər region dövlətləri, istər qonşu dövlətlər, istər dünyanın digər dövlətləri ilə dostluq, qonşuluq, mehriban müttəfiqlik münasibətləri saxlamağa çalışır, həmçinin İranla da. İran da vəziyyəti başa düşdü. Digər tərəfdən İran onu anladı ki, onun daxilində 30 milyondan çox, 40 milyona yaxın azərbaycanlı, Azərbaycan türkü yaşayır və bu faktor İranı geriyə addım atmağa məcbur elədi. Çünki, İran Azərbaycanla istənilən bir qarşıdurmaya gedərsə, bu, İranın dövlət olaraq sonunu gətirə, hətta İranın bir yox, bir neçə əraziyə parçalanmasına səbəb ola bilər. İran da bütün bu faktorları nəzərə alaraq atdığı addımlarda artıq aqressiya deyil, mülayim diplomatiya yoluna keçməyə başladı, Azərbaycanla normal münasibətlər son günlər məhz bu üzdən müşahidə olunur. Hesab edirəm ki, bundan sonra da artıq bu münasibət davam edəcək və İranla Azərbaycan arasında gərginlik yaşanmayacaq. Azərbaycanın haqlı olduğu hər kəsə məlum oldu və bundan sonra da olacaq", deyə politoloq Samir Hümbətov bildirib.

*İnam Hacıyev*

# Dövlət müstəqilliyimizin bərpasının ildönümü beynəlxalq elmi müzakirələrdə

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Beynəlxalq iqtisadiyyat" kafedrası Xarici Ticarətə Dəstək mərkəzi ilə birgə 12 oktiyabr 2021-ci il tarixində, saat 17:00-da Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə bağlı elmi seminar keçirib, seminara xarici ölkələrin səfirliklərindən numayəndələri ilə yanaşı kafedra əməkdaşlrı və UNEC tədqiqat mərkəzlərinin əməkdaşləri dəvət olunublar.***




Elmi seminarda Azərbaycan iqtisadiyyatının regional və beynəlxalq iqtisadiyyatda mövqeyinin artması şəraitində Cənubi Qafqazın müasir reallığı ilə əlaqədar Qarabağ regionunun və Zəngəzur dəhlizinin beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmaq imkanları müzakirə edilmişdir.

Elmi seminarda UNEC-in "Beynəlxalq iqtisadiyyat" kafedrasının müdiri, Xarici Ticarətə Dəstək mərkəzinin rəhbəri i.e.d., prof. İrşad Kərimli "Qarabağ regionunda iqtisadi rayonlaşma və Zəngəzur dəhlizinin beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmaq imkanlarının artması" mövzusunda, Səudiyyə Ərəbistan Krallığının Azərbaycan Respublikasındakı sabiq səfiri cənab İbrahim Al Sulaim "Səudiyyə Ərəbistan ilə Azərbaycan Respublikası arasında ticarət əlaqələrinin möhkəmləndirilməsi yolları" mövzusunda, Birləşmiş Ərəb Əmirliyinin Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili cənab Abdulla Al Şamsi "Cənubi Qafqaz regionunun iqtisadi inkişaf problemləri" mövzusunda məruzələr etmiş və müzakirələr edilib.

Elmi seminarda dinlənilən məruzələr və məruzələr ətrafında aparılan müzakirələrdə əsas diqqət Cənubi Qafqazda son vaxtlar yaranan reallıqlar müstəvisində Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Qarabağ regionunun Şimal-Cənub və Qərb-Şərq beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmağın imkanlarına və bu inkanların həyata kecirilməsində Zəngəzur dəhlizinin açılmasının xüsusi əhəmiyyətinə yönəldilib. Eyni zamanda məruzə ilə çıxış edən ərəb ölkələrinin səlahiyyətli nümayəndələri bütünlükdə Cənubi Qafqazın, ayrılıqda isə Azərbaycanın Qərb-Şərq dəhlizi ilə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət-iqtisadi əlaqələrinin uğurlu perspektivlərinin olcağını qeyd ediblər.

ANALİTİKA

# Ermənilərin Ağdağ müəmması: sərhədlər dəyişir

## Tarixi torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır

*Zəngəzurda, ümumiyyətlə isə, Ermənistanın Azərbaycanla müəyyən olunmamış sərhədlərində cərəyan edən hadisələrin və həmin hadisələr fonunda meydana çıxan yeni informasiyaların demək olar ki, hər biri, əslində, Azərbaycanın maraqlarını əks etdirir.*


azatutyun.am (RFE/RL)

Bu xüsusda daha bir məlumatın - Ağdağın da Azərbaycanın nəzarətinə keçməsi iddiaları Ermənistanın sosial şəbəkə və media seqmentini təlaşlandırmağa başladıb. SİA-ya daxil olan məlumata görə, Azadlıq Radiosunun erməni bürosu - Azatutyunun yaydığı informasiya maraqdoğurucudur. Erməni radiosu bildirir ki, Ağdağın yüksəkliklərində Ermənistan və Azərbaycanın bayraqları ilə yanaşı, Rusiya bayrağı da görünməkdədr.

"Sünik (Zəngəzur) vilayətindən Ağdağın Azərbaycanın nəzarətinə keçməsinə dair rəsmən təsdiqlənməmiş məlumatların daxil olmasına baxmayaraq, Azadlıq Radiosunun kameraları həmin yüksəklikdə Ermənistan və Azərbaycanın bayraqları ilə yanaşı, Rusiya bayrağının da olduğunu qeydə alıb", deyə sözügedən reportajda bildirilir.

### Erməni sakinlərin iddiası - Azərbaycan mövqeləri indi deyil, hələ ötən ilin dekabr ayından görünüb

Qeyd olunanlarla yanaşı, Azatutyun bildirir ki, həmin yüksəkdəki mövqeyə ən yaxın yerdən çəkilmiş videoda hərbçilərin olub-olmaması, habelə bayraqlar arasında nə qədər məsafənin olması da bilinmir. Lakin hər şeyə rəğmən ermənilər orada azərbaycanlı hərbçilərin olduqlarını müxtəlif söhbətlərində etiraf edirlər.

Misal üçün, ermənilərin Pela adlandırdıqları Ağdağ yüksəkliyinin 2 kilometrliyində yerləşən kəndin sakinləri adıçəkilən erməni radiosuna deyiblər ki, əslində, yüksəklikdə yerləşən Azərbaycan mövqeləri indi deyil, hələ ötən ilin dekabr ayından görünüb. Onlar həmçinin bildiriblər ki, sonrakı müddətdə hər hansı mövqe dəyişikliklərinin olması barədə məlumatsızdırlar, o cümlədən, ötən müddət ərzində burada insidentin, silahlı qarşıdurmanın da şahidi olmayıblar.

### Qafanlı sakinlər: "Hazırkı vaxta qədər heç bir atəş səsləri eşitməmişəm"

Sakinlərdən biri deyib: "Narahatlıq hər zaman var, onlar (azərbaycanlılar) gəlib düz burnumuzun altında dayanıblar, yaxşı olardı ki, təhlükəsizlik təmin olunsun. Mən atəş səslərini eşitməyim, ya da hər hansı dəyişikliyin baş verməsi barədə heç nə deyə bilmərəm... hər şey dekabrın 25-də necə idisə elə də qalıb. Biz üç ay postlarda yerləşmişdik, bizi bu postlarda dəyişiblər, hazırkı vaxta qədər heç bir atəş səsləri eşitməmişəm", deyə erməni sakin bildirib.

Digər kənd sakini isə fərqli olaraq bildirib ki, o, atəş səsləri eşidib: "Atəş səsləri olur, lakin bizə tərəf deyil. Haradan bilək ki, atəşlər hansı məqsədlə açılır".

### Ermənistanın milli təhlükəsizlik xidməti ilə Qafan merinin və erməni deputatının fikirləri üst-üstə düşmür

Qeyd edək ki, Ermənistanın milli təhlükəsizlik xidməti bir neçə gün öncə Qafanın meri Gevorq Parsyanın və Sünikin (Zəngəzurun) müxalifətçi deputatı Anna Qriqoryanın Azərbaycan Ordusunun Ağdağ dağı rayonunda irəlilədikləri barədə iddialarını təkzib edərək belə bir məlumat yaymışdı ki, orada hər hansı mövqe dəyişikliyi baş verməyib və Ermənistanın sərhəd qoşunları "dövlət sərhədini" mühafizə etməkdə davam edir.

Qafanın meri Parsyan isə bundan əvvəl yerli telekanala açıqlamasında bildirmişdi ki, adıçəkilən dağ hələ ötən ilin dekabrında təhvil verilib və həmin vaxtlar bu mövqelərə rus sərhədçiləri nəzarət edirdilər. Lakin merin sözlərinə görə, onlara da məlum olmayan səbəblərə görə ruslar bugünlərdə strateji yüksəkliklərdən eniblər və nəzarət Azərbaycan Ordusuna keçib.

"Bu məntəqə mühüm yüksəklikdir, bizim üçün strateji yüksəklikdir. İndi rusların olmamasına görə bütün məntəqə azərbaycanlıların nəzarəti altına keçib", deyə Parsyan bildirib.

### Erməni sakinlər "Azərbaycanlıları görmədən keçən alternativ yol var, lakin həmin yol həm uzundur, həm də keyfiyyətinə görə aşağı səviyyədədir"

Maraqlıdır ki, Azatutyun Radiosunun əməkdaşları yenidən Qafanın merindən mövzu ilə bağlı açıqlama almağa çalışsalar da, o, müsahibə verməkdən imtina edib. Onun mətbuat katibi erməni jurnalistlərinə deyib ki, merin başı qarışıqdır və görüşlərə qatılır.

Yerli sakinlər isə onu da iddia edirlər ki, Ağdağın digər - əsas yol keçən və Aqrakdan keçməklə Qafanın bir neçə kəndlərini birləşdirən tərəfi Azərbaycanın nəzarəti altındadır. "Azərbaycanlılar ötən ilin dekabrından başlayaraq yaşayış məntəqələrinə yaxın yerləşdikləri vaxtdan, onlar bu yoldan istifadə etmirlər. Azərbaycanlıları görmədən keçən alternativ yol var, lakin həmin yol həm uzundur, həm də keyfiyyətinə görə aşağı səviyyədədir, lakin aqaraklıların sözlərinə görə həmin yol təmir olunur", deyə erməni radiosu bildirir.

### Qafanın meri Parsyanın iddiaları həqiqətdir və ona "bu barədə danışma!" qadağası qoyulub

Mövzu ilə bağlı daha bir maraqlı məqam budur ki, Ermənistanın milli təhlükəsizlik xidməti Ağdağla bağlı başqa hər hansı rəsmi izahlar verməyib. Üstəlik, ölkənin müdafiə nazirinin müavini isə bildirib ki, hərbi mövqelərlə bağlı fikirlərin bildirilməsi dövlət sirridir və o da heç bir açıqlama vermək fikrində deyil.

Nəticədə isə biz belə bir qənaətə gələ bilərik ki, artıq Qafanın meri Parsyanın iddiaları həqiqətdir və bu həqiqətin daha geniş sferaya yayılmaması üçün ona yenidən bu mövzu ətrafında danışmaq qadağası qoyulub. Hər halda bu, ermənilərin öz problemləridir, Azərbaycan isə əlbəttə ki, üçtərəfli bəyanatın müddəalarının həyata keçirilməsi prosesini qalib tərəf kimi tələb etməkdədir və görünür, artıq buzlar yerindən oynamağa başlayıb - ermənilərin bəyanatın tələblərinə riayət etmələrindən başqa heç bir çıxış yolları qalmayıb.

**Rövşən RƏSULOV**

# "Münasibətlərdə yumşalma meyilləri alqışlanmalıdır"

*"Konstitusiyamızın 10-cu maddəsinə əsasən Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Bu mənada İran da istisna deyil. Cənub qonşumuz və 35 milyonluq soydaşımızın yaşadığı bir ölkə ilə dostluq və mehriban qonşuluq əlaqələri bizim üçün prioritetlərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.*

Onun sözlərinə görə, təəssüf ki, İranın bunu anlaması və Azərbaycanın güc və imkanlarını doğru qiymətləndirməsi üçün 30 il lazım oldu: "İran bu illər ərzində səhv yol tutdu, işğalı, təcavüzü, terroru dəstəklədi, bütün hallarda Azərbaycanın zəifləməsi üçün heç bir təşəbbüs və tədbirdən çəkinmədi. Lakin, Azərbaycanın 44 günlük müharibə ilə yaratdığı reallıq hər şeyi, o cümlədən güclər nisbətini də dəyişdirdi. Son 2 aylıq böhranlı dövr isə İrana Azərbaycan ilə tarazlı davranışın zəruri olduğunu başa saldı. Nəticədə, çox müsbət haldır ki, artıq münasibətləri gərginləşdirən problemlərin dialoqla çözülməsi üçün mühit yaranıb. Biz zatən ana qanunumuzun 9-cu maddəsində deyirik ki, beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edirik. Yəni, dialoq mühiti bizim ali məqsədlərimizə tam cavab verir".



Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, biz bu gün artıq Tehranın əvvəlki aqressiv davranışlarının nisbətən azaldığının şahidi olmaqdayıq. Lakin, biz məsələni unutmamalıyıq ki, İranın əsl xisləti dəyişməzdir və bu gün yumşalan münasibət Tehranın məcburiyyət qarşısında atdığı addımdır. Lakin, istənilən halda münasibətlərdə yumşalma meylləri alqışlanmalıdır. Çünki bütün dünya xalqları ilə o cümlədən də İranla dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək bizim təməl niyyətlərimizdən biridir".

**Arzu Qurbanzadə**

# İctimai nəqliyyatda və qapalı məkanlarda nəzarət gücləndirilib, mülki polislər cəlb olunub



*Koronavirus pandemiyasının geniş miqyasda yayılmasının qars?ısının alınması istiqamətində paytaxt ərazisində qapalı məkanlarda, o cümlədən, ictimai nəqliyyatda polis əməkdaşları tərəfindən gücləndirilmiş nəzarət-profilaktik tədbirlər həyata keçirilir. Tədbir zamanı mülki geyimdə olan əməkdaşlar da xidmətə cəlb edilib.*

"İki sahil" xəbər verir ki, Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, paytaxtın Binəqədi,Xətai və Pirallahı rayonlarında polislər tərəfindən ictimai nəqliyyatda, xüsusilə avtobuslarda tənəffü?s yollarını qoruyan fərdi vasitələrdən (tibbi maskalardan) istifadə etməyən s?əxslərlə profilaktik so?hbətlər aparılıb, əsassız bəhanələr gətirən s?əxslərə koronavirus infeksiyasının fəsadları və mo?vcud sanitar-gigiyenik tələblər izah olunub.

Tibbi maskadan istifadə etməyən şəxslər avtobuslardan düşürülüb, onlarla izahedici söhbətlər aparılıb. Polislər həmin şəxsləri ictimai nəqliyyatda olan zaman tənəffü?s yollarını qoruyan fərdi vasitələrdən, yəni maskalardan istifadə etməyin zəruriliyi barədə məlumatlandırıblar.

Həmçinin, profilaktik tədbirlər zamanı taksilərdə şəffaf arakəsmələr quraşdırmayan sürücülər, eləcə də, avtomobilin ön oturacağında əyləşən tibbi maskadan istifadə etməyən sərnişinlər, peyvənd olunmadan taksi fəaliyyəti ilə məşğul olan sürücülər barədə də qanunauyğun tədbirlər görülüb.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmis? koronavirusun profilaktikasına dair metodiki go?stəris?lərə əməl etməyən s?əxslər barəsində İnzibati Xətalar Məcəlləsinin mu?vafiq maddəsilə inzibati tənbeh tədbiri tətbiq olunur.

"Vətəndaşlardan bir daha xahiş edirik ki, koronavirusun daha da çox yayılmasına imkan verməmək mövcud sanitar-epidemioloji qaydalara əməl etsinlər, özlərinin və digər şəxslərin sağlamlıqlarına biganə yanaşmasınlar"- deyə DİN-in məlumatında qeyd edilib.

# Qubadlının işğaldan azad olunmasından bir il ötür

**_Ötən il 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Bu, Zəfər tariximizin ən şanlı səhifəsidir. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə Zəfərimizə doğru irəliləyirdik. Deməli olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik. "Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir._**

Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır". Bu fikirləri Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir. Zəngilan şəhərinin işğaldan azad olunması xəbərindən bir neçə gün sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza müjdə verərək, bir neçə kəndin, eləcə də Qubadlı şəhərinin işğaldan azad olunmasını bildirməsi milyonlarla insana bu qələbə sevincini yaşatmış oldu: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!"

Uğurla davam edən döyüş əməliyyatı Azərbaycanın Zəfər tarixini yazdı. Azərbaycan ordusunun əzmi, əsgər adını şərəflə daşıyan oğullarımızın ermənilərə verdiyi dərs bu torpaqları işğaldan azad etdi. Biz onların qarşısında baş əyirik, onlarla qürurlanırıq. Cənab Prezident Qubadlının azad olunması ilə bağlı belə deyirdi: "Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən, Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər. Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi". Məlumdur ki, ərazisi 802 kv.km olan Qubadlının 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var. 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. İşğal ərəfəsində isə əhali 30 minə qədər olub. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağ-pendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib. Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib. Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13 365 hektar meşə sahəsi işğal altında qalmışdı.Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qaraçağlı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğal olunub. Erməni təcavüzü zamanı Qubadlı 238 şəhid verib, 146 nəfər əlil olub. Artıq bir ildir ki, Qubadlı azad nəfəs alır. Cənab Prezidentin bildirdiyi kimi, "Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi". İşğaldan azad olunan Qubadlıda yeni bir həyat başlanacaq, hər bir məkan abadlaşacaq. Artıq işğaldan azad olunan ərazilərdə xalqımız dövlət başçısının rəhbərliyi ilə abadlıq-quruculuq işlərinə başlayıb.




***Nəzakət ƏLƏDDİNQIZI***

# Zəngəzur dəhlizinin açılması Azərbaycanın növbəti tarixi nailiyyəti olacaq





***Zəngilan Azərbaycan Respublikasının cənub-qərbində Ermənistan və İranla sərhəddə, Bakı-Culfa-Naxçıvan əsas dəmir yolları və magistral yollarının üzərində yerləşir. Rayon 1993-cü ildə oktyabrın 29-da təcavüzkar Ermənistan dövləti tərəfindən işğal olunmuşdu.***

Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində oktyabrın 20-də Zəngilan şəhəri, eləcə də Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Bartaz strateji yüksəkliyi, bundan başqa Sıg?ırt, S?u?ku?rataz yüksəklikləri və daha 5 adsız yüksəklik, 52 kənd düşməndən azad olundu. Qələbədən sonra həmin bölgələrin inkişafı üçün bütün imkanlarımız - siyasi iradə, xalqın dəstəyi, maliyyə resurslarımız olduğuna görə azad olunmuş torpaqların bərpası və yenidənqurulması, Qarabağın cənnətə çevrilməsi qarşıya bir məqsəd olaraq qoyuldu. Bu, həm də strateji hədəf kimi müəyyən edildi.

Vətən müharibəsində qazanılan Zəfərdən sonra işğaldan azad olunmuş torpaqlarda çox işlər görülür. Deməli olar ki, yerlə bir edilmiş bölgə gözümüzün önündə bərpa olunur. Qarabağ iqtisadiyyatımızda, qeyri-enerji sektorunda, eləcə də nəqliyyat sahəsində önəmli yer tutacaq.

Qısa müddət ərzində üç hava limanı və dəmir yolunun birləşdirilməsi işlərinə də başlanıldı. Erməni işğalı tərəfindən coğrafi mövqeyi nəzərə alınmaqla tamamilə məhv edilən Zəngilan əhəmiyyətli bir regional nəqliyyat -logistika mərkəzi rolunu oynaya bilər. Qeyri-enerji sektoruna və biznesə daha çox investor cəlb etmək imkanları hər keçən gün artır.

7 iyul 2021-ci ildə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzaladı. İqtisadi rayonlar bütövlükdə bölgənin və seçilmiş coğrafiyanın iqtisadi inkişafı baxımından vacibdir. Dövlət proqramları hazırlanan zaman isə iqtisadi rayonlarla bağlı daha ünvanlı proqramlar həyata keçirmək mümkün olur. Zəngilan rayonu da Şərqi Zəngəzur iqtisadi rayonun tərkibindədir. Bu iqtisadi rayon təbii ehtiyatlarla zəngin olan ərazimizdir. Orada qızıl, mis, inşaat materialları, dəmir ehtiyatları var. Bu ehtiyatlar nəticə etibarilə həmin ərazilərimizdə yeni istehsal sahələrinin, xüsusən də sənaye müəssisələrinin yaradılmasına imkan verəcək. Digər vacib məqamlardan biri Şərqi Zəngəzurun artıq müzakirə olunan və gələcəkdə formalaşdırılacaq Zəngəzur dəhlizinə çıxışı imkanlarıdır. Bildiyiniz kimi, Zəngəzur dəhlizi Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını (Ordubad rayonunu) birləşdirəcək. Bu da həm Zəngəzur dəhlizindən istifadə etmək imkanı, həm də Zəngəzur dəhlizi vasitəsi ilə Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunmasına imkan verəcək. Bu, nəqliyyat və logistik imkanlar baxımından vacibdir.

Zəngilandan keçən loqistik layihələr

Bu il aprelin 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olarkən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına başlanıldı. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Strateji əhəmiyyətə malik avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Avtomobil yolunun uzunluğu 124 kilometrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 76 kilometrlik hissəsi 3 gediş - 3 gəliş olmaqla 6, qalan 48 kilometrlik hissəsi isə 2 gediş - 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

Yeri gəlmişkən, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin inşası da əhəmiyyətli hadisədir. Bu dəmir yolunu istər Azərbaycan, istərsə də region dövlətləri üçün böyük strateji önəmi var. Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu əlaqəsi yaranacaq və bu yol Türkiyəyə qədər uzanacaq. Eyni zamanda, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gediş-gəlişi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Ümumiyyətlə, işğaldan azad olunan torpaqlarda inşa olunan bütün yollar bölgənin inkişafını sürətləndirəcək və regionun tranzit əhəmiyyətini artıracaq.

2021-ci ilin aprel ayında təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanı azad edilmiş torpaqlarımızda ikinci hava limanı kimi tikilib istifadəyə veriləcək. Mütəxəssislər bildirirlər ki, Zəngilanda Hava Limanının tikilib istifadəyə verilməsi eyni zamanda, Azərbaycan üçün Şərqə yeni qapı açacaq. Həmçinin hava limanı bu bölgəni beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır.

İkinci Qarabağ müharibəsində əldə edilən Qələbədən sonra Azərbaycanın nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi üçün çox əlverişli imkan yaranıb. Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə Bəyanatda Zəngəzur dəhlizinin açılması da müddəa kimi qeyd edilib. Dəhlizin açılması isə uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzura yenidən qayıdışını təmin edəcək. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir. Dəhlizin bərpa olunması yeni iqtisadi perspektivləri yaradacaq. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək Azərbaycanın növbəti tarixi nailiyyəti olacaq.

***Günel Eyyubova***

# Şəhidlərimiz hər zaman yaddaşımızda əbədi yaşayacaqlar!

## YAP Masallı rayon təşkilatının fəalları şəhidlərin məzarını ziyarət ediblər





Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının rəhbərliyi və fəalları rayonun Çaxırlı və Tüklə kəndləri, Ərkivan qəsəbəsi və Masallı şəhərindən şəhid əsgər Ağayev Ağamalı Şamil oğlunun, şəhid əsgər Nəcəfov Əli Seyran oğlunun, şəhid əsgər Əlizadə Famil Habil oğlunun və Hadiyev Vüsal Balarəzi oğlunun anım günündə məzarını ziyarət etmişlər. Anım mərasimində şəhidlərin ruhlarına dualar oxunmuş, məzarları üzərinə gül dəstələri düzülmüşdür. Daha sonra Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının rəhbərliyi və fəalları şəhidlərin ailə üzvləri ilə görüşmüş və onların problem və qayğıları ilə maraqlanmışlar. Şəhidlərin ailə üzvləri dövlətin onlara göstərdiyi diqqət və qayğıya görə, ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Allah şəhidlərimizə rəhmət eləsin !

**Rəfiqə**

## Ağdaş rayonunda şəhid Cəlil Əliyevin ildönümü qeyd olunub



Vətən müharibəsində şəhid olmuş Ağdaş rayonunun Qaradağlı kənd sakini Əliyev Cəlil Qüdrət oğlunun ildönümü qeyd olunub. Bu münasibətlə şəhidin doğulub-böyüdüyü və ailəsinin yaşadığı Qaradağlı kəndində mərasim keçirilib. Mərasimdə Yeni Azərbaycan Pariyası İdarə Heyətinin üzvü, YAP Ağdaş rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən, millət vəkili Cavid Osmanov və partiya fəalları, icra hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin məzarı ziyarət olunmuş, onun əziz xatirəsi ehtiramla anılmış, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, ailəsinə başsağlığı verilmişdir. Əliyev Cəlil Qüdrət oğlu 12 iyul 1998-ci ildə Ağdaş rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsi dövründə səfərbərliklə cəbhəyə yola düşən Cəlil Əliyev Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir. O, oktyabrın 22-də doğma kəndi Qaradağlıda dəfn edilmişdir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra ”Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

***ZÜMRÜD BAYRAMOVA***

## YAP Qazax rayon təşkilatının fəalları şəhid Mayis Yaqubovun məzarını ziyarət ediblər



22 oktyabr 2021-ci il tarixdə YAP Qazax rayon təşkilatının fəalları və rayon ictimayyətinin nümayəndələri Vətən müharibəsi şəhidi Yaqubov Mayis Rəhim oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzarının önünə gül dəstələri düzmüşlər. Daha sonra YAP Qazax rayon təşkilatının fəalları şəhidin ailə üzvləri ilə görüşmüşlər.

**Rəfiqə**

## Şəhidlərimiz hər zaman milli yaddaşımızda əbədi yaşayacaqlar



2020-ci il sentyabrın 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücumla başlanan 44 günlük Vətən müharibəsində şəhid olan Zərdab rayon Gəlmə kənd sakini mayor Rəhim Qədir oğlu Hüseynovun şəhadətə yüksəlməsinin ildönümü qeyd olunub. Şəhidin ildönümündə Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə, millət vəkili Jalə Əliyeva, RİH-in başçısının müavinləri, YAP Zərdab rayon təşkilatının sədri səlahiyyət-





lərini icra edən Pərvin Mahmudova, bir qrup YAP üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Zinhar Bayramov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zərdab rayon şöbəsinin rəisi polkovnik-leytenant Asif Əhədov, Vətən müharibəsi iştirakçıları, şəhidin ailə üzvləri və kənd sakinləri rayonun Gəlmə kəndində şəhidlərimizin xatirəsinə ucaldılan abidəni ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzüb, ruhuna dualar oxuyublar.

Daha sonra iştirakçılar şəhidin ailəsini ziyarət edərək, başsağlığı veriblər, tədbirdə çıxış edən, rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı diləyib. İcra hakimiyyətinin başçısı bildirib ki, bu gün Cənab Prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğı şəhid ailələrinə, qazilərə sonsuz ehtiramın nümunəsidir. Şəhidlərimiz hər zaman bizim qəlbimizdə və milli yaddaşımızda əbədi yaşayacaqlar.

Şəhidimizin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Hüseynov Rəhim Qədir oğlu 1984-cü ilin iyun ayının 1-də Zərdab rayonunun Gəlmə kəndində anadan olmuşdur. 1990-cı ildə Zərdab rayonunun M.F.Axundov adına Gəlmə kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuşdur. 1998-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olmuşdur. Liseydən məzun olduqdan sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbinə daxil olmuş, akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir. Çexiya, Almaniya, Macarıstan, ABŞ, Türkiyə, Bolqarıstan, Gürcüstan, Bosniya və Herseqovina, Ruminiyada hərbi kurslarda iştirak etmişdir. NATO baş katibi tərəfindən ən yüksək medala layiq görülmüşdür. Uzun müddət Əfqanıstanda sülhməramlı qoşunların tərkibində tabor komandiri olaraq xidmət etmişdir. Rus, ingilis və erməni dillərini mükəmməl bilirdi. Xidmət etdiyi dövrlərdə bir çox döyüş medalları və fəxri adlarla təltif edilmişdir.

Rəhim Hüseynov 27 sentyabrda başlayan II Qarabağ - Vətən müharibəsi döyüşlərində qəhrəmancasına iştirak etmiş, oktyabrın 20-də Qubadlı rayonu uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir. II Fəxri Xiyabanda dəfn edilmişdir.

Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən şəhid mayor Hüseynov Rəhim Qədir oğlu ölümündən sonra ”Vətən uğrunda”, ”Cəbrayılın azad olunmasına görə”, ”Qubadlının azad olunmasına görə” medalları ilə və ”Qarabağ” ordeni ilə təltif edilmişdir.

***ZÜMRÜD BAYRAMOVA***

# Antimilli şuranın məkrli niyyəti...

## Əli Kərimli yenə "qotur salmış dana kimi" niyə qaşınır?

**_Bu gün xalqımız dövlət başçımızın "Dəmir yumruq" əməliyyatı ilə 44 gün ərzində igid oğullarımızın Vətən yolunda canını sipər edərək torpaqlarımızı azad etməsinin bir illiyini qeyd edir. Şəhid olan oğullarımız ilk gündən bildirdilər ki, azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan Bayraqlarımızın qaldırılması yolunda Şəhid olmuruq, Şahid oluruq! Tanrının, haqqın dərgahında olan şəhidlərimiz sayəsində bu gün bütün evlər, eyvanlar, yollar üçrəngli bayrağımızla bəzənib. Bax, budur Şahidlik edən oğullarımızın Şəhidliyi! Azərbaycan əsgərinin məsləyi Qürurdur, Zəfərdir, Vətən torpağına üç rəngli Azərbaycan Bayrağını sancmaqdır! Budur qeyrət, hünər!_**

### Əli Kərimli kimi bir satqının şəhidlərə "şahidlik" etməsi cinayətdir



Bəli, bu gün Əli Kərimli kimi satqınların xalq, Vətənlə bağlı nə söz deməyə, nə də bu torpaqda yaşamağa haqqı yoxdur. Çünki Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Qənimət Zahid, Vidadi İsgəndərli və başqaları qotur salmış dana kimi qaşınan satqın Vətəni, qeyrəti, namusu olmayanlar sosial şəbəkələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından istifadə edib siyasi divident qazanmağa çalışanların "yanğısını" xalq yaxşı bilir. Məhz buna görə də AXCP sədri Əli Kərimli kimi bir satqının Şəhidlərə "şahidlik" etməsi cinayətdir. Çünki Əli Kərimlidə xalq, Vətənlə bağlı heç bir mənəvi dəyər qalmayıb. Bu cür dəyərsiz insanların sözü də dəyərsiz olur. Bu dəyərsiz, mənəviyyatsız, daha doğrusu, əxlaqsız Əli Kərimli və onun ətrafındakılar həyasızcasına sosial şəbəkələrdən Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək cəmiyyətdə çaşqınlıq yaratmağa çalışanların ancaq üzlərinə tüpürmək lazımdır. Artıq bu, korluq və karlıqdır. Çünki "Vətən", "millət" deyən əxlaqsızlar bəlkə bir geriyə baxsınlar... Amma təəssüf ki, geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəyin dediyi fikri xatırlatmaq istərdim: "Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə dövlətin ünvanına özlərinə layiq olduqlarını deyən Vətənini, torpağını satan-satılan AXCP sədri Ə.Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızları sosial şəbəkə istifadəçilərin böyük təpkilərindən üz döndərə bilməzlər.

### Vətəni, milləti satan Əli Kərimlinin ləçərləri

Həsən Məmmədov: "Belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan nakəslərdən başqa nəyi gözləmək olar?! Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan S.Osmanqızı, Ə.Kərimli kimi nəsli, nəcabətini erməniləşdirən nacinslərdən nə gözləmək olar? Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqınlardan çıxar. Vətəni, milləti satan Əli Kərimlinin Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl və ... kimi formalaşmış ləçərləri çoxdur".

Sosial şəbəkə istifadəçisi Qurban Məmmədov isə bildirib ki, əxlaq əsl kişiyə aiddir, daha Əli Kərimli kimi əxlaqsıza yox! Bu, gədənin biridir: "Əli Kərimli nə vaxtdan Vətən, xalq "sevən" olub. 28 ildir Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayıl bu xalqa təlqin edir ki, günahkar xalqdır. Ayıq olun, bunu bilin. Sən kimsən, Elçibəyə nələr eləmisən, nə təbliğat aparmısan, Kələkidən Bakıya necə gəlmisən, bunların hamısını ortaya qoyacağıq. Eyni ilə S.Osmanqızı, onun dədəsinin goru çatlayır indi. Bu övlad atasına hər gün lənət oxutdurur. 40 minlik kanal bağlatdıranda oxudu ki, guya adını demədiyi bir tələbə buna yazıb ki, dekan buna AzeriFreedomu layk edin, Osmanqızının kanalını isə dislayk edin. Budur, yalan, tərbiyəsizlik? Hanı sübut? Əli Kərimliyə nə qədər yalanacaqsan? Bax, budur satqınların formalaşmış siması. ABŞ-a sığınmış Sevinc Osmanqızı kimi əxlaqsızlar YouTube kanalında bu gün çıxış edərək bildirir ki, "iqtidar şəhidləri qiymətsiz edir" deyən belərini necə də əxlansız adlandırmayasan?". Sosial şəbəkə istifadəçisi Heyranxanım İdriszadə isə Əli Kərimliyə sual ünvanlayaraq bildirib ki, birinci Qarabağ müharibəsində əli silah tutan gənclər ön cəbhədə vuruşanda sən harada idin: "Ay satqın, axı bu insanlar sənin və sənin dəstənin hakimiyyətdə olduğu zaman əlillik adını qazanıblar. O zaman siz dövlətin büdcəsini yeyib-talan etməsəydiniz, o pula silah və sursat alınsaydı, bu gün müdafiə etdiyin insanlar əlil olmazdı". Günel Feyziyeva, Aysel Əlizadə və Aidə Hüseynova adlı sosial şəbəkə istifadəçiləri isə dövlətin, Prezident İlham Əliyevin Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə və veteranlarına göstərdiyi diqqət və qayğını diqqətə çatdırıblar.

Bir sözlə, cəmiyyətimizin həssas təbəqəsi olan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimlini elə bu kateqoriyadan olan insanlar, Vətənini sevən gənclər peşman etdilər. Sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri bu dəfə də dövlətin yanında olduqlarını, Cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Bu fakt özlüyündə bir daha həm Əli Kərimli kimi radikal müxalifət, həm də onlara himayədarlıq edən antiazərbaycan dairələri üçün şillə kimi cavab oldu.

Bu gün Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Qabil Məmmədov və başqa manqurtlar sürünə-sürünə bu dövlətin ayağına gələcək, bu Vətənin torpağını yalamaq istəyəcəksiniz. Ancaq bilməlisiniz ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri nə tarix, nə də bu xalq heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib, artıq bu manqurtlar məsuliyyətə cəlb edilməlidirlər. Necə deyərlər, şah qanun deyil, qanun şahdır. Bütün törətdikləri əməllərinə görə, Ə.Kərimli və onun kimi satqınlar etdikləri cinayətlərə görə mütləq şəkildə cavab verməli olacaqlar.

***Rəfiqə HÜSEYNOVA***



**Elçin Bayramlı**

# Sizə qız lazımdır?!

***Bəzi feministlər iddia edirlər ki, guya Azərbaycanda qadınlara qarşı ayrı-seçkilik var, onların ictimai həyatda təmsil olunması, iş tapması çətindir və s. Halbuki, vəziyyət tam bunun əksinədir. Şübhə edənlər paytaxt küçələrində və ya internetdə bir qədər gəzişsələr, yanıldıqlarını anlaya bilərlər.***

Mümkün olan bütün yerlərə yapışdırılan, vakansiya saytlarında yerləşdirilən saysız-hesabsız iş elanlarının əksəriyyətinin əsas maraqlı məqamı isə işçilərin cinsiyyəti ilə bağlıdır. Yəni, işverənlərin əsas şərti budur: "Qız tələb olunur!"...

Əvvəlcə, bu tendensiyanın bir müsbət cəhətini qeyd edək- ölkəmizdə gender probleminin olmadığını sübut edən bu elan kağızlarını dürmələyərək həmin feministlərin "gözünə soxa" bilərik. Çünki son zamanlar bəzi beynəlxalq təşkilatların nümayəndələri orda-burda ağızlarını avara qoyub deyinirlər ki, Azərbaycanda gender problemi var, qadın hüquqları pozulur- filan.

Azərbaycan gender bərabərliyi üzrə dünyada nümunəvi ölkələrdəndir. Hətta bizdə qadınların mövqeləri kişilərdən daha üstündür. Bu replikanı gender problemi ilə bağlı iştirak etdiyim beynəlxalq seminarların birində amerikan treynerə tərəf tulladım ki, bəlkə bu modern kovboy səhvini anlaya. Elə beləcə də dedim: "Mister Uill, mənə elə gəlir ki, qadın hüquqlarının ilk bərqərar olduğu ölkələrdən olan Azərbaycanda qadına hörmət və ehtiram çox yüksək səviyyədədir. Bizdə hətta az qala matriarxal cəmiyyət quruluşudur". (Nə təhər demişəm?!)

Treynerin və seminar iştirakçılarının maraqla dinlədiyini görüb cəsarətləndim və replikanı çıxışa döndərməyə qərar verdim: "Mən indi bunu sizə, Şərif demişkən, "sübutalni, dakumentalnı dakazat eləyərəm". Cəmiyyətimizdə qadınların mövqeyi kişilərdən üstündür. Dövlətimizin 2-ci və 3-cü şəxsi qadındır. Siyasətdə, iqtisadiyyatda, mədəniyyət və incəsənətdə, elm, təhsil və səhiyyədə həmçinin digər sahələrdə də üstünlüyü zərif (burada az qala çaşıb "zəif" deyəcəkdim, son millisaniyədə ortaya r hərfini əlavə edə bildim) cinsin nümayəndələri təşkil edirlər. Məsələn, təhsil, səhiyyə və ticarət sektorlarında qadın kontingenti 80%-dən yuxarıdır. Elə bu salondakı iştirakçıların da üçdə ikisi qadındır.

Mister Uill, siz heç Bakıda sərnişin nəqliyyatından istifadə etdinizmi? Gördünüzmü ki, metro vaqonlarında, avtobuslarda sərnişinlərin çoxu qadındır? Bir çox ailələri qadınlar dolandırır. Əksər ailələrdə son sözü qadın deyir.

Azərbaycan az qala yeganə ölkədir ki, nəqliyyatda qadın görən kimi kişilər durub yer verirlər. Mən şəxsən bir kişi olaraq şəhər nəqliyyatında sonuncu dəfə nə vaxt əyləşərək getdiyimi xatırlamıram. Gördüyünüz kimi, bizdə az qala matriarxal cəmiyyətdir".

Təvazökarlıqdan kənar olsa da, qeyd etməliyəm ki, çıxışımı bitirdikdə salonda ruslar demiş- "burnıe oplodismentı!". Amerikalı treyner azərbaycanlı tərcüməçiyə (yeri gəlmişkən, tərcüməçi də qadın idi!) şübhəli nəzərlərlə baxırdı- böyük ehtimalla, mənim sözlərimin ona düzgün çatdırılmadığı qənaətində idi...

Öz aramızda qalsın, dövlət himnimizdə qadın səsinin üstünlük təşkil etdiyi haqda ən tutarlı arqumenti mister Uillə demədim. Üstəlik, bizdə belə bir zərb-məsəl var ki, "arvaddan qorxmayan kişi sayılmır". Amma bunlar misterə deyiləsi söhbətlər deyil.

Nədən danışırdıq, hara gəlib çıxdıq... Həə, deməli, hamı qız axtarır, oğlanları heç vecinə alan yoxdur. Mən şəxsən bir neçə işverəndən bu cins məsələsinin elanlarda nəyə görə vazkeçilməz şərt olaraq qoyulduğunu soruşsam da, düz-əməlli cavab ala bilməmişəm.

Bütün dünyada işçiləri cinsinə görə yox, faydalı iş əmsalına- yəni qabiliyyətinə, biliyinə, bacarığına, təcrübəsinə görə götürürlər. Bu elanların sahiblərinə isə, işçi, mütəxəssis yox, qız lazımdır, qız!

**KÜNCDƏN BAXIŞ**

## Saakaşvilinin həbsxana fotoları yayıldı



Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilin həbsxanadan ilk fotosu çəkilib. SİA xəbər verir ki, o, saxlandığı Rustavidəki 12 saylı cəzaçəkmə müəssisəsinin dəmirbarmaqlı pəncərəsindən tərəfdarlarını salamlayıb.

M.Saakaşvili türmə kamerasından tərəfdarlarına "Siz çox güclüsünüz" sözləri ilə təşəkkür edib. Eks-prezident pəncərədə bir neçə saniyə ərzində görünüb. Pəncərə tez bir zamanda bağlansa da, media nümayəndələri onu lentə alıblar. Qeyd edək ki, M.Saakaşvili oktyabrın 1-də Tbilisidə saxlanılıb. O, artıq 21-ci gündür aclıq aksiyası keçirir.

## İndiyədək 18 min hektardan çox ərazi təmizlənib



**2020**-ci il 10 noyabr üçtərəfli bəyanatından indiyədək 18 min hektardan çox ərazi təmizlənib. SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Anadolu Agentliyinə müsahibəsində deyib.O qeyd edib ki, Azərbaycanın işğaldan azad etdiyi Qarabağ bölgəsi və ətraf ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın müddətdə döşənən minaların təmizlənməsi tədbirləri davam edir:

"İkinci Qarabağ müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan 2021-ci il oktyabrın 15-dək 18302 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib: Həmin ərazilərdə 22 230 partlamamış hərbi sursat, 17 426 piyada əleyhinə mina, 8 755 tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. İşğaldan azad edilən ərazilərdə minatəmizləmə işləri fasiləsiz davam edir".

Sədr həmçinin bildirib ki, bu işlər ilk olaraq magistral, dəmir yolu, obyekt və yaşayış yerləri üçün nəzərdə tutulan ərazilərdə aparılır.

***Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən və region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatı son zamanlar təkcə regional ekspertlərin deyil, beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edib. Xatırladaq ki, söhbət Cənubi Qafqazda 6 oyunçunun iştirakını nəzərdə tutan yeni əməkdaşlıq formulundan gedir: bir tərəfdən Rusiya, İran, Türkiyə, digər tərəfdən isə Azərbaycan, Gürcüstan və Ermənistan.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "3+3" formatı regionun gələcəyi üçün nə vəd edir?



Azərbaycanın təşəbbüskarı olduğu bu format Türkiyə tərəfindən də tam dəstəklənib. Hipotetik olaraq, bu format Cənubi Qafqazda, o cümlədən qonşu Gürcüstan üçün çoxtərəfli proseslərə qoşulmaq üçün bir fürsət açır, baxmayaraq ki, Rusiyanın da öz yerini alacağını



nəzərə alsaq, sonuncu mərhələnin bu mərhələdə iştirakı çox şübhəli görünür. Düzdür, media Gürcüstanın xarici işlər naziri David Zalkalianiyə istinadən Tbilisinin bu və ya digər formada elan edilmiş formata qoşulmağa hazır olması barədə yazıb. Bu arada, digər gün Gürcüstan mediasında Pentaqon rəhbəri Lloyd Ostinin bir jurnalistin Gürcüstanın bu formatda iştirakının NATO-ya gedən yoluna təsir edib-etməyəcəyi sualına cavab olaraq Moskvaya kəskin bir mesaj göndərdiyi barədə məlumatlar yayılmışdı. O deyib ki, Rusiya yeni platformalar haqqında danışmazdan əvvəl 2008-ci il atəşkəs illərinin şərtlərinə riayət etməlidir. Göründüyü kimi, ABŞ yeni regional platformaya münasibətini açıq şəkildə göstərib.

İrana gəlincə, "altılıq" ideyasının Tehranın yeni geosiyasi platformada alacağı iqtisadi üstünlükləri nəzərə alaraq İran rəhbərliyi tərəfindən təsdiqlənməsi təəccüblü deyil. Qonşu Ermənistanda isə eyni təşəbbüs son dərəcə mənfi qarşılanıb, Qarabağda son müharibədən sonra regionda qüvvələr nisbətinin dəyişməsi fonunda təhlükəsizliyə təhdid kimi qiymətləndirilib.

Bu arada, Belarusun Avropaya İnteqrasiya Mərkəzinin direktoru Yuri Şevtsovun sözlərinə görə, "3+3" formatı ən barışmaz rəqiblər arasında regional problemlər üzrə dialoq üçün imkan yaradır.

"Lakin mən bunun əsas əhəmiyyətini indi Gürcüstanda yeni xarici siyasət üçün baza yaratmaqda görərdim. Dərin daxili böhran üçün ilkin şərtlər var: Covidin ən güclü yayılması və gözlənilən enerji böhranı Gürcüstanda hər şeyin nə qədər ciddi olduğunu göstərir. Ona görə də bu formatın taleyi gürcü siyasi təbəqəsinin əlindədir. Çox güman ki, Gürcüstanda mövcud böhrandan əvvəlki vəziyyət bu və ya digər şəkildə həll olunmayana qədər bu təşəbbüs istiqamətində hərəkət zəif olacaq. "Hesab edirəm ki, bu, əsas məqamdır, çünki Birləşmiş Ştatlar hazırda diqqətini Gürcüstanda cəmləşdirir", - ekspert bildirib.

Yuri Şevtsovun hesablamalarına görə, Rusiya Gürcüstanda Tbilisinin xarici siyasətini yenidən istiqamətləndirmək istəyən qüvvələri gücləndirmək üçün şərait yaradıb.

"Bu formatın həyata keçirilməsi Azərbaycanın regional mövqelərini gücləndirəcək, Rusiya ilə Gürcüstan arasında münasibətlərin yaxşılaşması üçün ilkin şərtlər yaradacaq.

Ermənistanın belə bir şəraitdə Rusiya ilə münasibətlərdə eksklüzivliyi qoruyub saxlamaq üçün hələ də alternativi yoxdur. Yeri gəlmişkən, bu da bir problemdir. Amma Gürcüstandakı kimi kəskin deyil.

Mənə elə gəlir ki, bu konfiqurasiyada ən çox Rusiya qazanacaq, üstəlik bu, Gürcüstanla münasibətlərdə dalandan çıxmaq üçün də bir addım olacaq. Həm xarici siyasət aspektində, həm də daxili Gürcüstan aspektində. İran Cənubi Qafqaz siyasətində daha yüksək səviyyədə iştirak əldə edəcək. Amma ona dərindən nüfuz etmədən. Məsələn, Azərbaycanla münasibətlərin yaxşılaşdırılması. Hesab edirəm ki, Gürcüstan bu formatda kritik həlqədir.





Amma bu konfiqurasiyada ən böyük maraq Azərbaycandır. Əsas oyun onun ətrafındadır. Azərbaycan diplomatik oyun üçün kəskin imkanlar əldə edir. Rusiya Azərbaycan üçün Türkiyə və İranı müəyyən qədər balanslaşdıracaq. Beləcə, Azərbaycanın Türkiyəyə dayanıqlı bir dəhliz yaratmaq imkanları asanlaşır", - belaruslu mütəxəssis izah edir.

Öz növbəsində gürcü politoloqu Qela Vasadze qeyd edib ki, Tbilisi heç vaxt bu formata qoşulmağa hazır olduğunu bəyan etməyib. Onun sözlərinə görə, Gürcüstan xarici işlər nazirinin hipotetik olaraq belə bir ehtimalı qeyd etdiyi bəyanatı elə ertəsi gün XİN-in özü tərəfindən təkzib edilib- David Zalkaliani yanlış anlaşılıb.

"3 + 3 formatı Lavrovun İranı da Cənubi Qafqaza cəlb etmək təşəbbüsüdür. Bu, nəinki birbaşa münaqişə tərəflərinin, hətta İkinci Qarabağ müharibəsindən sonra bu formatı təbliğ edən Türkiyənin də maraqlarına ziddir. İndi vəziyyət elə dəyişib ki, nə Ankara, nə Bakı, nə də İrəvan hələ bu formata hazır deyil. Bəs Tbilisi niyə buna qoşulsun?

Pentaqonun rəhbəri isə Moskvaya xatırladıb ki, Rusiya Federasiyası hələ 2008-ci ilin avqust razılaşmasını yerinə yetirməyib və bu razılaşmanı yerinə yetirmək və yalnız bundan sonra bəzi formatlar haqqında danışmaq yaxşı olardı".

***Müəllif - Mətanət Nəsibova***
***Tərcümə - Elçin Bayramlı***

# "Bu, Rusiya üçün imic məsələsidir..."

***"...Rusiya üçtərəfli bəyanatın icrasının təminatçısı kimi erməni əsirlərin qaytarılması məsələsində maraqlı tərəfdir. Bu, digər məsələlərlə yanaşı, Rusiya üçün imic məsələsidir. Ona görə də Moskva əsir düşən əsirlərimizi müxtəlif üsullarla qaytarmağa çalışır".***

Deməli, bunu bu gün bunu "erməni şərəflisi", yəni "mənim şərəfim var" blokundan olan deputat Tiqran Abramyan erməni jurnalistlərə verdiyi açıqlamada bildirib.

Beləliklə, erməni deputata görə, bu gün bölgədəki rolunu nəzərə alan Rusiya guya Azərbaycanı üçtərəfli bəyanatın imzalanması üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edir. Azərbaycan isə, öz növbəsində, yeni güzəştlərə nail olmaq bütün lazımi addımları atır.

Qeyd edək ki, Abramyan Azərbaycanın əsir məsələsini spekulyasiya predmetinə çevirməsini onun Ermənistana göstərdiyi təzyiq kimi qəbul edir.

"Ermənistan hakimiyyətinin qeyri-adekvat hərəkətləri nəticəsində Bakı mövzu ətrafında spekulyasiya etmək və yeni tələblər irəli sürmək imkanı əldə edib. Noyabrın 9-da əsirlərin qaytarılması ilə bağlı bəyanatında bizim üçün yeganə əlverişli məqamla bağlı Ermənistan şərtləri müəyyən etməyə müvəffəq olmadı. Amma ərazilərin təhvil verilməsindən bəhs edən bəndlərdə şərtlər müəyyən edilib. Bu, bizim hakimiyyətin insan talelərinə münasibətindən danışır və əgər Ermənistan eyni adamlarla təmsil olunarsa, onda biz heç bir müsbət nəticə əldə etməyəcəyik" - deyə Tiqran Abramyan bildirib.

İtkin düşənlərə, onların yaxınlarına gəlincə isə Abramyana görə, burada erməni mətbuatının yazdığından əlavə də qaranlıq məqamlar var.



...Məsəl var deyərlər, axmağa hörmət edərsən, deyər məndən qorxur. İnanın, "erməni şərəflisi"nin bu fikirləri, nədənsə, hər şeydən əvvəl mənə bu məsəli xatırlatdı.

***Ağasəf Babayev***

SƏS

23 oktyabr
2021-ci il

# "Barselona" Mbappeni almağa ümidlidir




*Bu gün "Barselona" ciddi maliyyə çətinlikləri yaşayır, lakin klub gələn yay ən azı bir böyük sövdələşmə əldə etməyə ümidini itirmir. Belə ki, Kataloniya klubu Kilian Mbappenin transferinə ümid bəsləyir. Qeyd edək ki, kataloniyalılar istedadlı fransıza imza bonusu olaraq 90 milyon avro ödəyə biləcəklərinə inanırlar.*

Onu da qeyd edək ki, Madrid "Real"ı da Mbappeyə, yəni onu almağa ümidlidir. Lakin madridlilər fransız futbolçu üçün üçün "Barselona" ilə müqayisədə daha az, yəni 50 milyon avro təklif edirlər.

Xatırladaq ki, Kilian Mbappenin PSJ ilə hazırkı müqaviləsi cari mövsümün sonuna kimi hesablanıb. Yanvarın ilk günündən isə forvard xarici klubla sərbəst danışıqlar aparmaq və hətta ilkin müqavilə imzalamaq hüququ qazanacaq.

**Ağasəf**

# B12 vitamini əsəb sisteminin dərmanıdır...

***Sağlam həyat tərzi üçün qida rasionuna müxtəlif vitamin və minerallar daxil etmək lazımdır. B12 vitamini orqanizmimizin yaxşı fəaliyyət göstərməsi üçün zəruri hesab edilən B qrupuna daxil olan 8 həyati vacib vitamindən biridir. B12 vitamini qırmızı qan hüceyrələrinin (eritrositlərin) yaranmasına kömək edir, həmçinin əsəb sisteminin sağlam fəaliyyət göstərməsində mühüm rol oynayır. AZƏRTAC bu barədə tibb saytlarına istinadən xəbər verir.***




B12 vitamini təbii halda bəzi ərzaqların tərkibində mövcuddur və yəqin ki, artıq siz onları qəbul edirsiniz. Bu vitaminin əmələ gəlməsi üçün ət, balıq, pendir və yumurta, o cümlədən heyvanın qaraciyəri və böyrəyi, molyusklar, siyənək, zənginləşdirilmiş dənli bitkilər, tunes, zənginləşdirilmiş qida mayası, alabalıq, qızılbalıq, süd və süd məhsulları yaxşı mənbə hesab olunur.

İnsanlar müxtəlif və balanslaşdırılmış pəhrizə riayət edərək onlara lazım olan B12 vitaminini tam əldə etmək imkanı qazana bilərlər. B12 vitamininin əlavələrini qəbul edənlərə bunu həddən artıq etmək məsləhət görülmür, çünki bu, zərərli ola bilər. 19-64 yaş arası olan insanlara hər gün təqribən 1,5 mikroqram B12 vitamini tələb olunur.

Vegetarianlar öz pəhrizlərindən lazım olan B12 miqdarını ala bilmir, çünki bu vitamin təbiətdə nə meyvənin, nə də tərəvəz və taxılın tərkibində mövcuddur.

# Soyuq əllər bu ciddi xəstəliklərin əlaməti ola bilər

Soyuq əllər sağlamlıq bağlı problemlərin yarandığından xəbər verə bilər. Bu barədə rusiyalı damar həkimlərinin və damar cərrahlarının birgə rəyində bildirilir.

"Əgər bir adam soyuq əllərdən narahatdırsa, problemin səbəbini öyrənmək lazımdır. Bbəzi hallarda soyuq əllər fizioloji normadır, məsələn, ilin soyuq havalarında və ya aşağı hava temeperaturunda. Ancaq əllər mövsümdən və otaq temperaturundan asılı olmayaraq soyuq olarsa, bu bəzi sağlamlıq problemlərinə işarə edə bilər", - mütəxəsislər bildiriblər.

Qeyd olunur ki, soyuq əllər ateroskleroz və diabet kimi ciddi xəstəliklərin əlaməti ola bilər. Bundan əlavə, bu simptom tiroid xəstəliyini və digər hormonal pozğunluqları göstərə bilər. Soyuq əllər raynaud xəstəliyində, əl və ayaqların qan tədarükü pozulduqda da müşahidə edilə bilər. Bu problemlə siqaret çəkənlər və aşağı təzyiqli xəstələrin də qarşılaşma ehtimalı var.



"Səbəblər çox ola bilər və belə bir problemi olan bir insana kömək etmək üçün əvvəlcə zərərli vərdişlərdən imtina etməyi, həyatda fiziki aktivliyi və idmanı artırmağı, həkimlərin tövsiyələrini dinləməyi, qan təzyiqini və xolesterol səviyyənizi mütəmadi olaraq yoxlamağı məsləhət görürük", - yayımlanan birgə rəydə tövsiyə olunur./Publika.az

# "Qalatasaray"dan Moskvada əzmkar qələbə

***UEFA Avropa Liqasının qrup mərhələsinin III turuna yekun vurulub. D qrupunda Türkiyə təmsilçisi "Fənərbağça" klubu doğma azarkeşlər önündə Belçikanın "Antverpeni" komandasını qəbul edib. Görüş 2:2 hesablı heç-heçə başa çatıb. Oyunda ilk qolu 3-cü dəqiqədə qonaqların hücumçusu Mbavana Samatta vurub. İyirmi bir və 45-ci dəqiqələrdə fərqlənən Enner Valensiya İstanbul təmsilçisini önə keçirib. Matçda son nöqtəni isə 62-ci dəqiqədə Piter Gerkens qoyub.***

Azərbaycan millisinin futbolçusu Mahir Emrelinin çıxış etdiyi Polşanın "Legiya" klubu İtaliyada "Napoli" komandasına 3:0 hesabı ilə məğlub olub.

Matça ehtiyatda başlayan 24 yaşlı forvard 71-ci dəqiqədə Ernest Muçinin əvəzinə meydana daxil olub. Qonaqlar məğlubiyyətə baxmayaraq, ilk pillədəki mövqeyini qoruyub.

Türkiyənin turnirdəki digər təmsilçisi "Qalatasaray" isə E qrupunda Rusiyada "Lokomotiv" komandası ilə üz-üzə gəlib. Qarşılaşma İstanbul klubunun minimal hesablı qələbəsi ilə başa çatıb. Yeganə qolu 82-ci dəqiqədə Kerem Aktürkoğlu vurub. Bununla da xallarını 7-yə çatdıran "sarı-qırmızılılar" ilk pillədə qalıb. Meydan sahibləri isə 1 xalla sonuncudur.




# Azad olunan ərazilərə ceyranlar nə vaxt buraxılacaq?



İşğaldan azad olunan ərazilərə ceyranların buraxılması ilə bağlı planlar olsa da, indiki mərhələdə bu proses təhlükəlidir. Bunu "Trend"ə açıqlamasında Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov deyib.

Nazir müavini bildirib ki, bunun üçün həmin ərazilərdə əvvəlcə tam təhlükəsizlik tədbirləri görülməlidir: "Ərazilər minalardan tam təmizlənəndən sonra bu proses həyata keçirilə bilər. Ərazidə minaların olması həmin heyvanların həyatına təhlükədir. İndiki anda həmin ərazilərə yalnız quşların buraxılması mümkündür. Bu da planımızda var. Ceyranların həmin ərazilərə yaxın 3-4 ayda buraxılması nəzərdə tutulmayıb".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**